

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 31 yanvar 2022-ci il


# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**BDU Elmi Kitabxanasında "Şuşa-270" adlı kitab sərgisi**
→Səh.2

**20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq səhifələrindən biridir**
→Səh.4

**BDU Muğla Sıtkı Koçman Universiteti ilə Mevlana mübadilə protokolu imzalayıb**
→Səh.5

**Bakı Dövlət Universitetində qış imtahan sessiyası uğurla davam edir**
→Səh.6

**Müəllimlərimiz imtahan sessiyası haqqında danışıb**
→Səh.7

**Ekologiya və torpaqşünaslıq fakültəsində elmi seminar**
→Səh.7

**"Tariximiz və dəyərlərimiz" mövzusunda tədbir keçirilib**
→Səh.8

**Kimya fakültəsi və SOCAR Polymer zavodunun əməkdaşları arasında görüş keçirilib**
→Səh.9




**Prezident İlham Əliyev 2022-ci ili "Şuşa İli" elan edib**
→Səh.2



**"20 Yanvar - tarixçilərimizin gözü ilə" adlı konfrans keçirilib**
→Səh.3



**BDU bir il ərzində Hirş indeksini 5 bal artırıb**
→Səh.5



**Universitetdə payız semestrinin imtahan sessiyası başlayıb**
→Səh.6



**BDU-nun nəzdində yeni Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi yaradılıb**
→Səh.12



## 20 Yanvar şəhidlərinin anım mərasimi keçirilib

***Yanvarın 19-da Bakı Dövlət Universitetində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbirdən əvvəl BDU-nun 2 saylı tədris binasının qarşısında Şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

Sonra tədbir böyük akt zalında davam edib.

Mərasim iştirakçıları ilk olaraq 20 Yanvar qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Giriş sözü ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 32 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Bu tarix Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib.

O zaman yalnız Ümummilli Liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək kəskin bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra 1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.

Milli Məclisinin üzvü, BDU-nun professoru Jalə Əliyeva qeyd edib ki, həmin gün xalqımız böyük faciə ilə üzləşsə də, özünün Vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, müstəqillik uğrunda mübarizliyini, sarsılmazlığını bütün dünyaya nümayiş etdirdi. 20 Yanvar faciəsi ermənipərəst sovet rəhbərliyinin Azərbaycana qarşı məkrli niyyətini bir daha açıb göstərdi. 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılıb.

Sonra Tarix fakültəsinin dosenti Sənubər İsmayılova, Jurnalistika fakültəsinin doktorantı Nurşərəf Tağıyeva çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qanlı hadisələr haqqında çıxış edib, sovet ordusunun paytaxtda, eyni zamanda bölgələrdə həyata keçirdiyi qətliamdan, günahsız insanların həyatlarını itirməsindən bəhs edib, şəhidlərimizin müasir tariximizin qəhrəmanlarına çevrilməsindən söz açıb, şəhid ailələrinə, əlillərə dövlətin diqqət və qayğısından danışıblar. Sonda 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun 20 Yanvar şəhidlərinin qisasının alındığı, vətən uğrunda canlarından keçmiş oğullarımızın Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı qeyd olunub.

Tədbridə AzTV-nin istehsalı olan "Tarixin izi ilə" sənədli filmi (sənədli filmin ssenari müəllifi BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovdur) nümayiş etdirilib.

Tədbir Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə ədəbi-bədii hissə ilə davam edib.





# Prezident İlham Əliyev 2022-ci ili “Şuşa İli” elan edib

***Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili “Şuşa İli” elan edirəm.***

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirib.

“Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm ki, dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Artıq ikinci ildir ki, ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, bu gün dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər.

# Azərbaycan Respublikasında 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.***

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.




Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Şuşa İli” ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 yanvar 2022-ci il*

## BDU-nun dosenti “Azərbaycan xalqının mübarizə tarixi və Şuşa” mövzusunda məruzə edib

***Yanvarın 11-də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Dünya azərbaycanlıları: tarixi-demoqrafiya elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi, dosent Səidə Quliyeva Sumqayıt Dövlət Universitetində Gənc Alimlər Şurasının təşkilatçılığı ilə “Azərbaycan xalqının mübarizə tarixi və Şuşa” mövzusunda vebinarda iştirak edib.***

Vebinarı giriş sözü ilə açan Gənc Alimlər Şurasının sədri Xəyalə Mürsəliyeva bildirib ki, Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevin Azərbaycanda 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında Sərəncamı bir daha ölkəmizdə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunmasına dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğının göstərildiyini nümayiş etdirir.

Dosent Səidə Quliyeva “Azərbaycan xalqının mübarizə tarixi və Şuşa” mövzusunda məruzə ilə çıxış edib. S.Quliyeva çıxışında Azərbaycan xalqının erməni millətçilərinə qarşı mübarizəsində Şuşa şəhərinin rolu, Azərbaycan dövlətinin Birinci Qarabağ müharibəsindən sonra işğalçı düşmən tapdağından öz ərazilərini azad etmək üçün gördüyü tədbirlər, Vətən müharibəsi və Şuşa əməliyyatı, Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı olması haqqında danışıb. Azərbaycan xalqının erməni millətçilərinin həyata keçirdiyi etnik təmizləmə və soyqırımlarına qarşı mübarizəsində Şuşa şəhərinin mühüm mərkəz olmasını tutarlı faktlarla əsaslandırıb.

Məruzəçi qeyd edib ki, 1905-1906, 1918-1920, 1988-1992 və 2020-ci il döyüşləri zamanı mədəniyyət beşiyi olan Şuşa Azərbaycan xalqının separatizmə, soyqırım və etnik təmizləmə, terrora qarşı mübarizəsinin mərkəzi olub. Məhz bu səbəbdən də Şuşa şəhərinin işğaldan azad edilməsi qarşı tərəfin kapitulyasiyası və hərbi əməliyyatlarının dayandırılmasına səbəb olub. Məruzəçi daha sonra 2021-ci ildə Tarix fakültəsində hazırlanmış "Qarabağ Azərbaycandır! Zəfər Epopeyası" monoqrafiyası haqqında geniş məlumat verib.

Sonda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablan-

# Elmi Kitabxanada "Şuşa-270" adlı kitab sərgisi




***Yanvarın 17-də 2022-ci il Azərbaycanda "Şuşa İli" ilə əlaqədar Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında "Şuşa-270" adlı kitab sərgisi təşkil edilib.***

Sərgidə dörd dildə (Azərbaycan, türk, ingilis və rus dillərində) nəşr olunmuş "İlham Əliyev: Əziz Şuşa, biz qayıtmışıq!" kitabı, Şuşanın və Qarabağın tarixinə və mədəniyyətinə həsr olunmuş müxtəlif əsərlər, o cümlədən əslən Şuşadan olan elm, mədəniyyət və incəsənət xadimlərinin kitabları nümayiş etdirilib.

Sərgi ilin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.

# 20 Yanvar faciəsindən 32 il ötür

***1990**-cı ilin 20 Yanvar hadisələrindən 32 il keçir. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 32 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Bu tarix Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəmizin və milli əzmkarlığımızın rəmzinə çevrilib.*




20 Yanvar Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb.

Sovet Ordusunun xüsusi təyinatlı bölmələrinin Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular. Bakıda yanvarın 20-si gecəyarısı, saat 00:00-da fövqəladə vəziyyətin tətbiq edilməsi barədə imzalanmış fərman səhər saat 6-nın yarısında radio ilə elan olundu. Fövqəladə vəziyyətin elan olunması əhaliyə elan edilənədək hərbçilər 82 nəfəri artıq amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər qətlə yetirilib. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər öldürülüb.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

O zaman yalnız Ümummilli liderimiz Heydər Əliyev siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham etmiş, kəskin bəyanatla çıxış etmişdir. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cu ilin mart ayında Milli Məclisdə faciəvi 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdir.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində memorial abidə kompleksinin açılışı oldu.

O faciəli günlərdən artıq 32 il keçir. 32 ildir ki, Dağüstü parkdakı Şəhidlər xiyabanı və Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" xatirə kompleksi xalqımızın ən möhtəşəm ziyarətgahına, ən müqəddəs and yerinə çevrilib.

Bu gün xatirəsini daim əziz və uca tutduğumuz bütün şəhidlərimizin - Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bacı və qardaşlarımızın ruhu şaddır. Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin hərbi və siyasi bacarığı, qüdrətli ordumuzun rəşadəti, xalqımızın möhkəm birliyi sayəsində 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qarabağ zəfəri ilə şəhidlərimizin intiqamı alındı, onların qanı yerdə qalmadı.

20 Yanvar qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizə uca Allahdan rəhmət diləyirik!

# 20 Yanvar faciəsinə həsr edilmiş xüsusi dərs keçirilib

***Yanvarın 22-də Kitabxanaçılıq-informasiya fakültəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş xüsusi dərs təşkil olunub.***

Əvvəlcə 20 Yanvar faciəsi zamanı və Qarabağ uğrunda şəhid olan soydaşlarımızın unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

20 Yanvar faciəsinə həsr edilmiş xüsusi dərs Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslanın mühazirəsi ilə davam etdirilib. Knyaz Aslan mühazirədə sovet imperiyasının işğalçılıq siyasəti, 20 Yanvar faciəsinin başvermə səbəbləri haqqında tələbələrə dolğun informasiya verib. Faciənin baş verməsindən dərhal sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək bu qanlı hadisəyə cəsarətlə etiraz etməsini xüsusi vurğulayan Knyaz Aslan məhz Ulu Öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verildiyini diqqətə çatdırıb.

Həmin dövrdə jurnalist kimi fəaliyyət göstərən Knyaz Aslan müxtəlif mətbuat orqanlarında bu mövzuda yazdığı məqalələri tələbələrə nümayiş etdirib, eyni zamanda faciə günlərində gündəliyinə etdiyi tarixi qeydləri oxuyub. Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə nəticəsində bütün şəhidlərimiz kimi 20 Yanvar faciəsinin qurbanlarının da arzularının gerçəkləşdiyini, onların ideallarının qalib gəldiyini vurğulayan natiq Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən soydaşlarımızın əziz xatirələrinin hər zaman qədirbilən xalqımız tərəfindən yaşadılacağını bildirib.

Xüsusi dərs tələbələr tərəfindən diqqətlə dinlənilib, mühazirəçiyə çoxsaylı suallar ünvanlanıb.

# Faciəni əks etdirən fotolardan ibarət sərgi təşkil olunub



***Yanvarın 19-da Qanlı Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Bakı Dövlət Universitetində kitab sərgisi təşkil olunub.*** Elmi Kitabxananın təşkil etdiyi sərgidə 20 Yanvar gecəsində baş vermiş hadisələri qələmə almış müəlliflərin əsərləri, həmin müdhiş gecəni əks etdirən fotolar nümayiş olunub.

# "20 Yanvar - tarixçilərimizin gözü ilə" adlı konfrans keçirilib

***Yanvarın 19-da Bakı Dövlət Universitetinin Tarix fakültəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş "20 Yanvar - tarixçilərimizin gözü ilə" adlı konfrans keçirilib.***





Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb, daha sonra 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov konfransı giriş sözü ilə açaraq 1990-cı il Qanlı Yanvar hadisələrinin əsas səbəblərini, Azərbaycanın müstəqilliyinə gətirib çıxaran Milli Azadlıq Hərəkatının başlanmasından bu günə xalqımızın qəhrəmanlıq səhifələrindən bəhs edib. Qafqaz xalqları tarixi kafedrasının professoru Qabil Əliyev 20 Yanvar hadisələrində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlığı, o vaxt SSRİ hakimiyyətində olan Qorbaçovun birbaşa göstərişi ilə Bakıya qoşun yeridilməsi faktlarını qeyd edərək, bildirib ki, mənfur ermənilər 20 Yanvar hadisələrində də öz çirkin niyyətlərindən əl çəkməyərək eyni zamanda Qarabağda və digər rayonlarda da qırğınlar törədiblər.

Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi, dosent Səidə Quliyeva milli müstəqillik yolunda 1989-cu ildən başlayan qırğınlardan başlayaraq bu günümüzə qədər Azərbaycan xalqının göstərdiyi şücaətdən, xalqın ayağa qalxması ilə Sovet hakimiyyətinin məğlubiyyətindən, nəticədə Azərbaycanın müstəqil respublikaya çevrilməyindən danışıb.

Tarix fakültəsinin TGT sədri Murad Hüseynli 20 Yanvar hadisələrinə Ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi qiymətin verilməsini, 20 Yanvar şəhidlərinin unudulmaması üçün dövlətimizin atdığı addımları qeyd edib.

Sonda 20 Yanvar hadisələrinə həsr olunmuş videoçarx nümayiş olunub.

# 20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq səhifələrindən biridir

***Bu gün 20 Yanvar hadisələrinin 32-ci ildönümüdür. 20 Yanvar xalqımızın hüzn günü olmaqla yanaşı, şərəf günü, qəhrəmanlıq tarixinin növbəti səhifəsidir. 20 Yanvar faciəsindən sonra xalqımız milli birlik nümayiş etdirdi, müstəqil dövlətimiz uğrunda mübarizə gücləndi və nəticədə dövlət müstəqilliyi bərpa edildi.***

Tarix bizə Azərbaycan xalqının qəhrəmanlığı barədə minlərlə faktlar verir və nəticələri barədə sübutlar göstərir. Bu sübutlar işğalçılara qarşı xalqın iradəsinə, ideologiyasına, ictimai inkişafın qanunauyğunluqlarına əsaslanır. Yadelli işğalına baş əyməyərək müstəqil dövlət qurmaq uğrunda mübarizəmiz hər zaman uğurla nəticələnib. İşğal, etnik təmizləmə və soyqırıma qarşı Azərbaycan xalqının 200 illik mübarizəsi cəsarətlə, qürurla aparılmışdır. Mübarizənin əsas gücü - genetik yaddaş - tarixi yaddaşdır. Biz XX əsrin sonunda baş verən hadisələrə nəzər saldıqda məhz həmin genetik yaddaşın nə qədər təsirli yer tutduğunu görürük. XX əsrin sonunda fərqli bir vəziyyətlə üzləşmişdik: Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz, qərəzli münasibəti. İmperiyanın belə münasibətinin tarixi və sosial-siyasi kökləri var idi. Azərbaycan Qafqazda yeganə türk-müsəlman dövləti idi. Azərbaycanlılara qarşı soyqırım, deportasiya, Azərbaycan ərazisinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin əsası da bunlarla bağlı idi. Xalq ermənilərin ərazi iddiaları ilə əlaqədar öz torpağına, namusuna sahib çıxırdı və müstəqilliyi uğrunda mübarizəyə qalxmışdı. SSRİ rəhbərliyi sistemin dağılmasının qarşısını almaq üçün müttəfiq respublikalarda tətbiq edilən cəza tədbirlərini burada da tətbiq etməyə qərar verir. Lakin bu qərar azərbaycanlıların bu dəfəki mübarizəsinin qarşısını ala bilmədi. Tək qaldığımız, çarəsiz olduğumuz həmin illərdə belə milli birliyimizi qoruduq.

Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının, Ermənistanda və Azərbaycanda baş verən hadisələrin xarici mətbuatda obyektiv əks olunmasına ciddi maneələr var idi. Bu səbəbdən də, baş verənlər barədə dünyada ictimai fikri həqiqətlər deyil, ermənilərin təqdim etdiyi məlumatlar formalaşdırırdı. Faciə baş verən gecə qırğına etiraz edən Bakı buxtasındakı "Sabit Orucov" gəmisi "SOS!" siqnalı ilə bütün dünyaya faciə barədə ilk məlumat verir. Lakin Azərbaycanda baş verənlər haqqında dünya mediasına ilk ciddi və təfərrüatlı məlumat yanvarın 21-də verildi və dünya dövlətləri qırğından xəbər tutdu. Həmin gün görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək orada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış edir, faciənin SSRİ və Azərbaycan rəhbərlərinin səhv qərarı, günahı üzündən baş verdiyini açıq bildirir. Çətin şəraitdə yaşamasına baxmayaraq, bu cəsarətli addımı ilə xalqla birlikdə olduğunu göstərir, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir. Ulu öndərin 20 Yanvar faciəsi ilə əlaqədar bu çıxışının böyük tarixi əhəmiyyəti oldu.

Bu çıxışdan sonra - yanvarın 22-də Azərbaycan SSR Ali Soveti faciə ilə bağlı deputat komissiyasının yaradılması barədə qərar qəbul etmiş, Bakıda və bütün Azərbaycanda dinc əhaliyə qarşı görünməmiş cinayət törədilməsi ilə əlaqədar SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqının xalqlarına, dünyanın bütün dövlətlərinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul etmişdir. Lakin bu komissiya öz işini yarımçıq dayandırmışdır.

20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sayəsində 1994-cü il mart ayının 29-da verilmiş, Milli Məclisdə" 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edilmişdir. Qərarda faciənin ciyanətkarları göstərilmişdir. Bu cinayətin təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə və insanlığa qarşı cinayət kimi qiymətləndirilmişdir.

Bununla bərabər, Azərbaycanın istiqlalı uğrunda canlarından keçən şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün 1998-ci il martın 31-də "20 Yanvar şəhidi" fəxri adı təsis edilmiş, həmin il oktyabrın 9-da Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin, 2010-cu il yanvarın 2-də 20 yanvar dairəsində "20 Yanvar abidə-kompleksi"nin açılışı olmuşdur.

İllər keçir və biz 20 Yanvar faciəsinə fərqli yanaşmağa başlayırıq. Tarix göstərdi ki, Bakıya Sovet qoşunlarının yeridilməsi tamamilə fərqli nəticələndi. Belə ki, bu hərbi əməliyyat xalqın milli azadlıq hərəkatını boğmaq məqsədi daşısa da, tariximizin növbəti qəhrəmanlıq məktəbi oldu. Xalqın şüurunda birmənalı olaraq müstəqillik fikrini möhkəmləndirdi. Ermənilərin ərazi iddialarına və SSRİ-nin mərkəzi hakimiyyətinin qərəzli mövqeyinə etiraz olaraq başlayan milli mübarizə hərəkatı müstəqilliyimizin bərpasına, həmin imperiyanın isə çökməsinə təkan verdi.

Xalqın azadlıq mübarizəsi güclü dövlətin qurulması prosesini sürətləndirdi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın ərazi bütövlüyünün qorunması, Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi uğrunda ciddi mübarizə başlayır. Soyqırımı, etnik təmizləmə, terrora qarşı aparılan mübarizə 2020-ci ilin payızında zəfərlə başa çatır. 44 günlük Vətən müharibəsi Azərbaycan Milli Ordusu və onun Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tarixi ədaləti və ərazi bütövlüyümüzü bərpa etməsi məhz Ulu öndər Heydər Əliyevin Qarabağ siyasətinin məntiqi davamı və nəticəsi idi.

Gələcək bütün nəsillərimizin şəhidlərin ruhu qarşısında borcu vardır. Bu borc hər birimizdən - böyükdən kiçiyə hər bir azərbaycanlıdan Azərbaycan Respublikasının müstəqilliyini qorumağı və onu inkişaf etdirməyi tələb edir. Bu 30 ildə biz əmin olduq ki, müstəqilliyi qazanmaq da, qorumaq da asan deyil. Və biz torpağımıza, dövlətimizə sahib çıxmalıyıq. Bunu bizdən müstəqil dövlətimiz uğrunda mübarizə aparan milli şüurumuz, tarixi köklərimiz və bu yolda canlarından keçən şəhidlərimiz tələb edir.

Bu gün bir daha Azərbaycanın azadlığı uğrunda mübarizə aparan, canından keçən hər bir kəsi hörmətlə yad edirik. Allah bütün şəhidlərimizin ruhunu şad eləsin!

***Səidə Quliyeva,***
*Tarix fakültəsinin dosenti*

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirilib

***Yanvarın 21-də Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.***

Anım mərasimində 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Kollecin direktoru Səhər Orucova bildirib ki, 20 Yanvar hadisələrində azadlığı canlarından üstün tutan soydaşlarımız Azərbaycanın yenidən öz dövlət müstəqilliyini bərpa etməsində böyük rol oynayıblar. 20 Yanvar hadisələrindən bəhs edən Səhər Orucova qeyd edib ki, xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixində Qanlı Yanvar faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırılaraq 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət olduğu sübut edilib, tam siyasi-hüquqi qiymətini alıb.

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin adlarının əbədiləşdirilməsi, onların xatirəsinin daim ehtiramla anılması, şəhid ailəsi üzvlərinin sosial problemlərinin həlli istiqamətində hər zaman mühüm addımlar atılmışdır. 20 Yanvar faciəsinin xalqımızın yaddaşına kədər və hüzn ilə bərabər, həm də qürur və qəhrəmanlıq səlnaməsi kimi həkk olunduğunu bildirib.

Tədbirin bədii hissəsində Kollecin yaradıcılıq mərkəzinin üzvləri şeir, musiqi nömrələri ilə çıxış edib, səhnəciklər göstəriblər.

Sonda 20 Yanvar hadisələri ilə bağlı videoçarx nümayiş olunub.

# Jurnalistika fakültəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib



***Yanvarın 18-də Jurnalistika fakültəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Qanlı Yanvar günü Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirin moderatoru, Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev çıxış edərək faciənin xalqımızın milli azadlıq uğrunda mübarizəsinin şanlı səhifəsi olduğunu bildirib. Bu tarixi günün yad edilməsinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Fakültənin professoru Cahangir Məmmədli Qanlı Yanvar gecəsinin canlı şahidi kimi baş verən prosesləri əbədi olaraq yaddaşına həkk etdiyini, faciənin necə ağrılı-acılı bir hiss olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, 20 Yanvar faciəsi tarixə xalqımızın həm də qəhrəmanlıq səhifəsi kimi daxil olub, azadlıq uğrunda gedən mübarizənin rəmzinə çevrilib.

Çıxış edənlər sırasında fakültənin Tədris işləri üzrə dekan müavini Esmira Rövşənova, əməkdaşlardan Diləfruz Şahbazova, Zibeydə Mirzəyeva 20 Yanvar faciəsi ilə bağlı xatirələrini bölüşüb, dinc əhalinin amansızcasına qətlə yetirilməsini vandalizm aktı kimi dəyərləndiriblər.

Sonra Jurnalistika fakültəsinin birinci kurs tələbələrindən Anar Hüseynov, Fidan Bəbirova, Sərvinaz Hacalıyevanın mövzu ilə bağlı çıxışları dinlənilib.

Sonda çıxış edən fakültə dekanı Vüqar Əliyev 1990-cı ilin Yanvar günlərində Azərbaycan xalqının istiqlal əzmini ortaya qoyaraq, bu dəyər uğrunda canından keçməyə hazır yüzlərlə övladının olduğunu bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb.

# BDU Rumıniyanın Alexandru İoan Cuza İasi Universiteti ilə Erasmus mübadilə protokolu imzalayıb

***Bakı Dövlət Universiteti dünyanın nüfuzlu elm və təhsil müəssisələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə, qarşılıqlı elm, təhsil mübadiləsinin təmin edilməsinə, beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirir.*** Beynəlxalq əməkdaşlıq Universitetinin inkişaf startegiyasında prioritet istiqamətlərdən hesab olunur. Yanvarın 25-də BDU ilə Rumıniyanın Alexandru İoan Cuza İasi Universiteti arasında Erasmus mübadilə protokolu imzalanıb.

BDU ilə Alexandru İoan Cuza İasi Universiteti arasında imzalanan Erasmus mübadilə protokolunda tələbə, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsi öz əksini tapıb. Həyata keçirilən əməkdaşlığın əsas məqsədi BDU-nun Alexandru İoan Cuza İasi Universiteti ilə əlaqələrinin inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Alexandru İoan Cuza İasi Universitetinin rektoru Tudorel Toader imzalayıb.

Məlumat üçün bildiririk ki, əsası 1860-cı ildə qoyulmuş Alexandru İoan Cuza İasi Universitetində 25000 tələbə təhsil alır. Universitetin 15 fakültəsində müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Alexandru Ioan Cuza Iasi Universiteti QS WUR fənn reytiqində 1201+ pillədə yer alır.

# BDU Muğla Sıtkı Koçman Universiteti ilə Mevlana mübadilə protokolu imzalayıb

***Yanvarın 27-də BDU ilə Türkiyə Cümhuriyyətinin Muğla Sıtkı Koçman Universiteti arasında Mevlana mübadilə protokolu imzalanıb. Mevlana mübadilə protokolunda tələbə, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsi öz əksini tapıb. Həyata keçirilən əməkdaşlığın əsas məqsədi BDU-nun müvafiq üniversitetlə əlaqələrinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Muğla Sıtkı Koçman Universitetinin rektoru Hüseyn Çiçək imzalayıb. Müqavilə çərçivəsində bakalavr, magistr və doktorantların, o cümlədən tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Məlumat üçün bildiririk ki, əsası 1992-ci ildə qoyulmuş Muğla Sıtkı Koçman Universitetində 44000 tələbə təhsil alır. 4 institut, 47 araşdırma mərkəzinin fəaliyyət göstərdiyi Universitetdə 21 fakültədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# Türkiyənin Əskişəhər Texniki Universitetinin nümayəndə heyəti universitetdə olub

***17-21 yanvar tarixlərində Türkiyə Cümhuriyyətinin Əskişəhər Texniki Universitetinin (ESTU) Mühəndislik fakültəsinin Kimya mühəndisliyi kafedrasının professor-müəllim heyətindən ibarət nümayəndə qrupu Erasmus+ KA107 layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında olublar.***



Kimya mühəndisliyi kafedrasının professoru Elif Kaynak Uraz kafedranın tədris planı, həmçinin beynəlxalq əməkdaşlığı haqqında ətraflı məlumat verib. "Kimya mühəndisliyində riyazi modelləşdirmə" fənni haqqında danışan dosent Yeşim Güçbilmez fənnin proqramı və tədrisi ilə bağlı geniş təqdimatla çıxış edib. Kafedranın nümayəndələri eyni zamanda tədris zamanı tətbiq olunan yeni texnologiyalar haqqında da məlumat veriblər. Dosent Yeşim Güçbilmez "Nanomateriallar və oksidləşmə reaksiyaları" mövzusunda mühazirə oxuyub.

Səfər zamanı Türkiyə və Azərbaycan tədqiqatçıları arasında nanomaterialların sintezi və tətbiqi ilə bağlı səmərəli elmi müzakirələr aparılıb. Professor Mustafa Muradov qonaqlara Nanoaraşdırmalar və Sənaye kimyası elmi-tədqiqat laboratoriyaları, habelə BDU-nun kafedralarının təhsil və elmi fəaliyyəti barədə məlumat verib.

Türkiyəli tədqiqatçıların BDU-ya səfəri zamanı iki universitet arasında əməkdaşlıq və ortaq layihələr məsələlərini müzakirə etmək məqsədilə Nanoaraşdırmalar və Sənaye kimyası elmi-tədqiqat laboratoriyalarının əməkdaşları - professor Ülviyyə Həsənova, professor Rasim Alosmanov, Ofeliya Balayeva və digər tədqiqatçılarla görüş və seminarlar keçirilib.

# BDU bir il ərzində Hirş indeksini 5 bal artırıb



***Bakı Dövlət Universitetinin əməkdaş, doktorant və tələbələrinin 2021-ci il üzrə elmi fəaliyyəti uğurla nəticələnib. Belə ki, BDU-da elmi fəaliyyət üzrə kompleks tədbirlərin həyata keçirilməsi 2021-ci ildə elmi nəticələrin keyfiyyətinin kifayət qədər artmasına səbəb olub.*** Clarivate Analytics Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən 2021-ci ildə BDU-nun Hirş indeksi 5 bal (44-dən 49-a qədər) artıb. Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi əsərlər və həmin əsərlərə istinada görə kəmiyyət göstəricisidir. Hər bir əsərə istinadların orta sayı isə 5.58-ə qədər yüksəlib. Onu da qeyd edək ki, 2018-ci ilin sonunda BDU-nun Hirş indeksi 35-ə bərabər olmuşdur.

Agentliyin rəsmi məlumatına əsasən BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən Web of Science bazasına daxil olan jurnallarda artıq 3321 elmi əsər nəşr edilib. Bu əsərlərə 18529 dəfə istinad edilib. Təkcə 2021-ci ildə Web of Science bazasına daxil olan jurnallarda BDU tərəfindən 247 əsər (2021-ci il üzrə yekun nəticələr tam deyildir, 2022-ci ilin ilk yarımilliyində tamamlanacaqdır) nəşr edilib və nəşr edilən əsərlərə 4517 dəfə istinad edilib ki, bu da 2018-ci ildə edilən istinadların sayından 2.6 dəfə çoxdur.

Qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında yenə liderdir.

# Universitetin 8 fakültəsində dekan seçkiləri keçirilib



***Xəbər verdiyimiz kimi, Bakı Dövlət Universitetində müvafiq fakültələrdə və bir sıra kafedralarda boş olan dekan və kafedra müdiri vəzifələrinin tutulması üçün seçkilər keçirilir.***

Seçkilər Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq səsvermə yolu ilə keçirilir.

"Xalq qəzeti"nin 30 noyabr tarixli sayında verilmiş elan əsasında 8 fakültədə səlahiyyət müddəti bitmiş dekan vəzifələrinə seçkilər artıq yekunlaşıb. Seçkilərin nəticələrinə görə, Mamoy Mansurov - Geologiya fakültəsinin, Ələmdar Bayramov - Kitabxanaçılıq-informasiya fakültəsinin, Rövşən Cavadov - Sosial elmlər və psixologiya fakültəsinin, Afət Məmmədova - Biologiya fakültəsinin, Ziyatxan Əliyev - Mexanika-riyaziyyat fakültəsinin, İbrahim Zeynalov - Tarix fakültəsinin, Bəxtiyar Paşayev - Fizika fakültəsinin, Elçin Məmmədov - Filologiya fakültəsinin dekanı vəzifələrinə seçiliblər.

# BDU-da payız semestrinin imtahan sessiyası başlayıb



*Yanvarın 5-də Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyası başlayıb. İmtahanlar Azərbaycan Respublikası təhsil nazirinin 2021-ci il 10 dekabr tarixli F-570 nömrəli əmrinə müvafiq olaraq əyani formada təşkil edilib.*

İmtahanların ilk günündə BDU-nun rektoru Elçin Babayev professor-müəllim heyəti ilə görüşdə sessiya dövründə tələbələrin biliyinin obyektiv qiymətləndirilməsinin və şəffaflığın təmin edilməsi üçün bütün şəraitin yaradıldığını bildirib. İmtahanların keçirilməsi zamanı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na ciddi riayət olunacağını qeyd edib. İmtahanlarda tələbələrə və professor-müəllim heyətinə müvəffəqiyyət arzulayıb.



COVID-19 pandemiyasının mənfi təsirlərinin azaldılması, BDU-da imtahanlararası növbəliliyin gözlənilməsi, sıxlığın aradan qaldırılması məqsədilə bakalavriat səviyyəsinin I kursunda təhsil alan tələbələr üçün humanitar fənn blokuna aid olan "Azərbaycan dilində işgüzar kommunikasiya" və "Xarici dildə işgüzar kommunikasiya" fənləri üzrə imtahanların şifahi formada cədvəl üzrə müəyyən olunmuş günlərdə saat 14:00-18:00 aralığında təşkil ediləcək. Həmçinin II, III, IV kurslarda payız semestrində tədris olunan fənlərdən yalnız biri üzrə imtahan şifahi formada, əvvəlcədən təyin olunmuş günlərdə saat 14:00-18:00 aralığında təşkil ediləcək.

Bakalavriat səviyyəsinin bütün kurslarında yazılı imtahanlar əvvəlcədən təyin olunmuş günlər üzrə saat 10:00-13:00 aralığında təşkil ediləcək. Magistratura səviyyəsinin I və II kurslarında bütün imtahanlar yazılı formada və əvvəlcədən təyin olunmuş günlər üzrə saat 14:00-18:00 aralığında təşkil olunacaq. 2021/2022-ci tədris ilinin payız semestrində onlayn və ənənəvi dərslərdə texniki səbəbdən, eləcə də xəstəliklə əlaqədar olaraq iştirak edə bilməyən tələbələrin müraciətlərinə onların təqdim etdikləri sənədlərə uyğun olaraq fərdi qaydada baxılacaq.

İmtahan sessiyasının təşkili və həyata keçirilməsi ilə bağlı İmtahan Qərargahı və Qaynar xətt yaradılıb. Qərargaha daxil olan hər bir şikayətin operativ araşdırılması məqsədilə Qərargahın nəzdində Apelyasiya Komissiyası fəaliyyət göstərir.



# "İqbal" qəzeti: maarifçilikdən milli özünüdərkə" mövzusunda elmi seminar keçirilib

***Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasında elmi seminar keçirilib. Seminarı giriş sözü ilə açan elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva tədbir iştirakçılarını salamlayıb, mövzunun aktuallığını diqqətə çatdırıb.***

Daha sonra doktorant Afaq Ağayarova ""İqbal" qəzeti: maarifçilikdən milli özünüdərkə" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə maarifçiliyin XIX əsrin sonlarında olduğu kimi, XX əsrin əvvəllərində də ədəbi-tarixi prosesi və mədəni-siyasi fikri məşğul edən əsas məsələ olduğunu diqqətə çatdırıb. Doktorant "İqbal" (1912-1915) qəzetini XX əsrin əvvəllərində həyat və cəmiyyət hadisələrinə münasibətin formalaşmasına yardım etməklə maarifçiliyin təbliğatçısı kimi səciyyələndirib.

Seminarda Milli mətbuat tarixi kafedrasının professoru Nəsiman Yaqublu, dosentlər Sima Rəhimova, Aygün Əzimova, müəllimlər Samir Mirzəyev, Ruxsarə Məmmədova, elmi işçilər Günay Məmmədova və Nigar Ağayevanın mövzu ilə bağlı fikirləri maraqla qarşılanıb.

# BDU-nun magistrantları qış imtahan sessiyası haqqında danışır

***İmtahan sessiyasının təşkili və idarə olunması barədə BDU-nun magistrantlarının fikirlərini öyrəndik:***



***Fizika fakültəsinin I kurs magistrantı Yaqut Ağacanova:***

“Pandemiya dövründə davam edən distant təhsildən sonra tələbələr artıq ənənəvi təhsilə adaptasiya olmağa başlayıblar. İmtahanlar öncəsi qismən ənənəvi dərslərdə iştirak etmək tələbələrdə keçirilən fənlər haqqında müəyyən təsəvvür yaradır, həmçinin müəllim və tələbər arasında ünsiyyət canlı formada həyata keçirilir. Canlı ünsiyyət öz növbəsində tələbələrin qavrama və öyrənmə bacarıqlarını daha da inkişaf etdirir.

Yanvar ayında başlayan imtahanlar öz axarı ilə davam edir. Həm tələbələr, həm də müəllimlər üçün bu cür imtahan forması şəffaf hesab olunur. Bütün tələbələr biliklərini məhz ənənəvi imtahanlarda daha yaxşı şəkildə nümayiş etdirə bilirlər. Hazırda davam edən imtahanlar universitet rəhbərliyinin daim diqqətindədir. İmtahanlarda yüksək nəticə əldə etmək üçün tələbələr fənn materiallarını dərindən mənimsəməyə çalışırlar. Artıq 2 imtahanımdan yüksək nəticə əldə edərək, növbəti imtahanlara da eyni motivasiya və məqsədlə hazırlaşıram. Ümid edirəm ki, bu hal əksər tələbələr üçün keçərlidir. Müəllimlər həm distant, həm də ənənəvi təhsildə biz tələbələrə böyük həvəslə dərs keçdilər. Onların bizə olan inamlarını doğrultmaq bizim üçün önəmli öhdəlikdir.”



***Filologiya fakültəsinin I kurs magistrantı Bəsti Səttarova:***

“Sonuncu dəfə 2020-ci ilin yanvar ayının sonu ənənəvi imtahanda bu hissləri BDU-nun 3-cü kurs bakalavr tələbəsi kimi keçirmişdim. İndi isə Universitetin 1-ci kurs magistrantı olaraq yenidən həmin hissləri yaşayıram, imtahan sessiyasına uğurla davam edirəm. Bu çox gözəl haldır, çünki yeni yoldaşlarla doğma auditoriyalarda əvvəlki həyəcanları yaşayıram. Əvvəlcə düşünürdüm ki, 2 saat müddətində bildiklərimi imtahan vərəqlərində əks etdirmək mənim üçün çox çətin olacaq. Lakin bu zaman müddəti ilə bağlı hər şey nəzərə alınıb qərar verilmişdir, bu da ədalətlidir. Yazılarımızın obyektiv yoxlanılması və operativliyin təmin olunması tələbələr üçün əsl xoşbəxtlikdir. İmtahan sessiyasının iştirakçılarına uğurlar arzu edirəm”.



***Jurnalistika fakültəsinin I kurs magistrantı Nurlan Şirəliyev:***

“Bilirsiniz ki, imtahanlarımız yazılı və şifahi şəkildə keçirilir. Ənənəvi tədrisə keçid məni sevindirir. Həm də imtahanlara daha yaxşı hazırlaşmaq şansım oldu. İmtahanın gedişindən çox məmnunam. Dərslərin və imtahanların ənənəvi təşkil olunması professor-müəllim heyətini də sevindirir. Dərsləri həftədə iki dəfə “Blackboard” elektron platforması üzərindən, bir dəfə isə ənənəvi şəkildə davam etdirdik. Bu metod tələbələrə elmi-metodiki köməyin göstərilməsi, onların zəruri məlumatlarla təmin olunmasını daha da əlverişli edir.”



***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin II kurs magistrantı Nuranə Pənahlı:***

“Fikrimcə, bu il tədrisin və imtahanların ənənəvi şəkildə olması biz tələbələr üçün çox müsbət bir haldır. Son 2 ildə tədrisin və imtahanların məsafədən təşkili professor-müəllim heyətinin səylərinə baxmayaraq riyazi ixtisaslar üzrə təhsil alan tələbələrdə çətinliklər yaratdı. Lakin bunların öhdəsindən texniki və kommunikativ bacarıqlarımızı inkişaf etdirərək məharətlə gəldik. Artıq bu semestr imtahanlar ənənəvi formada keçirilir. İmtahan prossesinin şəffaflığı müəllim-koordinatorlar tərəfindən təmin olunur. Dəslərimizin hibrid formada təşkili bilik və bacarıqlarımızın inkişafına uzun sürən onlayn təhsildən sonra öz töhfəsini verir.”

# Müəllimlərimiz imtahan sessiyası haqqında danışır

*Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyası uğurla davam edir. Universitetin professor-müəllim heyətinin imtahan sessiyasının təşkili barəsində fikirlərini öyrəndik:*











***BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri professor Cahangir Məmmədli:***

"Qış imtahan sessiyasının gedişatı və tələbələrin göstəricilərinin yüksək olması sevindirici haldır. Magistrantlarımız da nəzəri prinsip və tədqiqat metodları haqqında geniş biliyə malikdirlər. Onların sərbəst yazı qabiliyyətləri, fikir ifadə etmə bacarığı imtahan suallarına tam dolğun cavab verməyə imkan verir. İxtisas biliklərini dərin mənimsəmələri və professor-müəllim heyətinin səyi nəticəsində imtahanlar tam şəffaf və obyektiv təşkil olunur. İmtahan iştirakçıları pandemiyanın şərtlərinə uyğun olaraq yerləşdirilirlər. Tələbələrin imtahana hazırlıq səviyyələri, onların nəzəri biliklərinin yoxlanması üçün təşkil olunan imtahan sessiyasının obyektiv keçirilməsi məqsədilə həm tələbələr, həm də koordinator müəllimlər tam məlumatlandırılmışlar. İmtahan sessiyasında iştirak edən bütün tələbələrimizə müvəffəqiyyətlər arzulayıram".

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının müəllimi Xaliq Rüstəmov:***

"BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində payız semestrinin imtahan sessiyasında tələbələrin öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün bütün şərait yaradılıb. Sevindirici haldır ki, artıq imtahanlar universitetimizin auditoriyalarında ənənəvi şəkildə təşkil olunur. Semestr ərzində ənənəvi dərslərin yüksək səviyyədə təşkili ilə yanaşı, mühazirə mətnləri, ədəbiyyat və elektron materiallar tələbələrə 'Blackboard' onlayn platforması vasitəsi ilə də çatdırılmışdır ki, bu tələbələrin imtahanlara yüksək səviyyədə hazırlıqlı olmasına kömək edir. Fakültədə keçirilən imtahanlara universitet rəhbərliyi, dekanlıq və kafedra müdirləri tərəfindən yüksək səviyyədə nəzarət edilir. Professor-müəllim heyəti tələbələrə humanist, qayğıkeş münasibət göstərir. İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması istiqamətində bütün tədbirlər görülübdür. Bu semestrdə bəzi imtahanların şifahi formada keçirilməsinə qərar verilmişdir ki, bu da sessiyanın təşkilində müsbət qiymətləndirilir. İmtahanlarla əlaqədar yarana biləcək istənilən problemlərlə bağlı müvafiq olaraq Qərargaha, "Qaynar xətt" və elektron poçt vasitəsilə göndərilən bütün müraciətlərə Apelyasiya Komissiyası tərəfindən operativ qaydada baxılır".

***Geologiya fakültəsinin dekan müavini Ruslan Şəmiyev:***

"Qeyd etmək istərdim ki, BDU-da imtahan sessiyası yüksək səviyyədə və müvafiq standartlara uyğun təşkil edilir, imtahan sessiyasına uğurlu nəzarət həyata keçirilir. Universitetin Elmi Şurasının payız semestrinin imtahan sessiyasının keçirilməsi haqqında qərarına əsasən, bütün fakültələrdə əyani təhsilalma forması üzrə təhsilalanlar üçün imtahanların yazılı və şifahi-dialoq formasında təşkili, doğrudan da, imtahan prosesində sıxlığın tənzimlənməsinə müsbət təsirini göstərmişdir. İmtahan sessiyası ilə bağlı məsul olan əməkdaşların, şöbələrin Tədrisin təşkili və idarə olunması Mərkəzi ilə kordinasiyalı işi, o cümlədən tədris prosesinin operativ şəkildə təşkili və idarə edilməsi üzrə işlərin obyektiv və dəqiq həyata keçirilməsi istiqamətində görülən işlər və atılan addımlar əvvəlki illərlə müqayisədə deyərdim ki, işləri xeyli asanlaşdırmış və tədris prosesində keyfiyyətin yüksəlməsinə öz müsbət təsirini göstərmişdir. Hazırda imtahan sessiyasının əsas hissəsini geridə qoymuşuq. Təhsilalanların müvəffəqiyyət və keyfiyyət göstəricilərinin təhlili bir daha sübut edir ki, doğrudan da imtahan sessiyasının təşkili prosesi uğurla davam edir, tələbələrimizin akademik hüquqlarının və maraqlarının qorunması istiqamətində qanunvericiliklə nəzərdə tutulmuş bütün addımlar həyata keçirilir. Yeri gəlmişkən, tələbələrimizə də imtahan sessiyasında uğurlar arzulayırıq".

***Jurnalistika fakültəsinin dekan müavini Sevinc Əliyeva:***

"Magistrantlarımız semestr ərzində təsdiq olunmuş dərs cədvəlinə uyğun olaraq onlayn mühazirə və ənənəvi qaydada seminarlarda iştirak ediblər. Müəyyən olunmuş qrafik üzrə fərdi işləri və kollokviumları veriblər. Hazırda isə qış imtahan sessiyası uğurla davam edir. İmtahanların pandemiya şəraitinin qaydalarına uyğun tam şəffaf və obyektiv təmin olunmasına nəzarət olunur".

***Mexanika riyaziyyat fakültəsinin Diferensial və inteqral tənliklər kafedrasının dosenti Şirmayıl Bağırov:***

"Bildiyiniz kimi, pandemiya ilə əlaqədar olaraq həm 1-ci, həm 2-ci kurslar ilk dəfə əyani imtahan sessiyasında iştirak edirlər. 3 semestrdən sonra yenidən əyani imtahan sessiyasının olması biz müəllimlər üçün də həyəcanlı və sevindiricidir. Tələbələrdə bu həyəcan özünü daha çox büruzə verir. Buna görə biz onlara daha diqqətlə, qayğı ilə yanaşırıq. Eyni zamanda hər hansı problemlə üzləşildikdə onu operativ olaraq həll etməyə çalışırıq. Tələbələrin əyani imtahan sessiyasına qayıtması, onlarda imtahanlara qarşı diqqət, məsuliyyət hissini daha yüksək səviyyədə dərk etməyə imkan verir. Mexanika-riyaziyyat fakültəsi tələbələrinin hər zaman ümumi göstəriciləri yüksək olubdur. İmtahanlar arasında müddət 3 gündən az olmayaraq təyin edilmiş və tələbələrin imtahanlara hazırlaşması üçün bütün imkanlar yaradılmışdır. Bütün tələbələrə uğurlar arzu edirəm".

# BDU-da "Tarix fakültəsinin tanınmış məzunları ilə görüş" layihəsinə start verilib

***Yanvarın 26-da Tarix fakültəsində "Tarix fakültəsinin tanınmış məzunları ilə görüş" mövzusunda silsilə tədbirlərin ilk qonağı Milli Məclisin üzvü Naqif Həmzəyev olub.***



Tədbirdə Tarix fakültəsinin dekan müavini Elnur Əbilov çıxış edərək layihənin əhəmiyyətindən danışıb.

Milli Məclisin üzvü Naqif Həmzəyev tələbələrlə olan səmimi görüşündə gənclərə öz tövsiyələrini verərək, tələbəlik illərindən bəhs edib. O, bildirib ki, Tarix fakültəsi hər zaman vətənə, millətə layiqli xidmət edən gənclər yetişdirib.

Daha sonra Tarix fakültəsinin dekanı İbrahim Zeynalov da belə tədbirlərin fakültənin və tələbələrin təhsil həyatında xüsusi rol oynadığını qeyd edib.

Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov dövlətimizin həyata keçirdiyi gənclər siyasətindən danışıb, tələbələrlə görüşə görə millət vəkili Naqif Həmzəyevə təşəkkürünü bildirib.

Sonda Naqif Həmzəyev tələbələrin suallarını cavablandırıb.

# Ekologiya və torpaqşünaslıq fakültəsində elmi seminar keçirilib

***Yanvarın 27-də Ekologiya və torpaqşünaslıq fakültəsində onlayn elmi seminar keçirilib. Seminarda Ekologiya və torpaqşünaslıq fakültəsinin professor-müəllim heyəti, doktorantlar, magistrantlar və fakültənin digər əməkdaşları iştirak edib.***

Seminarda Bioekologiya kafedrasının doktorantı Səbinə Cəfərzadə "Böyük Qafqazın şimal-şərq hissəsinin Pyrus L. cinsi növlərinin in situ və ex situ şəraitində ekobioloji xüsusiyyətləri" və Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının doktorantı Günel Əliyeva "Gilgilçay hövzəsi torpaqlarının ekoloji qiymətləndirilməsi və monitorinqi" mövzularında məruzə ediblər.

Səbinə Cəfərzadə məruzədə Böyük Qafqazın şimal-şərq hissəsində yabanı armud növlərinin in situ və ex situ şəraitində ekobioloji xüsusiyyətlərini elmi cəhətdən əsaslandırmaqla perspektivliyinin qiymətləndirilməsi, tədqiq olunan bitkilərin taksonomiyası, xarakteristikası və bioekoloji xüsusiyyətləri, tədqiq olunan bitkilərin çoxalma xüsusiyyətləri, onların abiotik və biotik amillərə qarşı münasibəti haqqında çıxış edib.

Günel Əliyeva isə Gilgilçay hövzəsi torpaqlarının müasir ekoloji vəziyyəti, torpaqların əsas və yekun bonitet şkalasının tətrib edilməsi, ekoloji ballarının tapılması və torpaqların bonitirovka və ekoloji qiymət xəritələrinin tərtibi, Gilgilçay hövzəsi landşaft kompleksləri üzərində ekoloji monitorinqin təşkil edilməsi nəticəsində təbii landşaftların sahəsinin azalması və aqrolandşaftların sahəsinin artırılmasından bəhs edib.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.





# Rektor Elçin Babayev BDU-nun qazi tələbələri ilə görüşüb

***Yanvarın 19-da Bakı Dövlət Universitetində 44 günlük Vətən müharibəsində iştirak edən tələbələrlə görüş keçirilib.***

BDU-nun rektoru Elçin Babayev qaziləri salamlayaraq Azərbaycan Respublikasını Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. E.Babayev şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən söz açıb. Bu tarixi zəfərin Prezident-Xalq-Ordu birliyi sayəsində əldə olunduğunu xüsusi vurğulayıb. O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə



sonsuz iftixar hissi doğurduğunu qeyd edib.

Elçin Babayev qazi tələbələrin təhsilləri ilə maraqlanıb, onlara qanunvericilik çərçivəsində hər cür dəstək göstəriləcəyini diqqətə çatdırıb. Qeyd edib ki, BDU Elmi Şurasının qərarı ilə alt qruplarda təhsil alan tələbələr ödənişdən azad ediliblər. Müharibə iştirakçısı olan tələbələrin yüksək təhsil almaları üçün bütün şərait yaradılıb.

Görüşdə qazilərin sualları cavablandırılıb, təklifləri nəzərə alınıb. Vətən müharibəsi iştirakçıları isə onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

# Kitabxanaçılıq-informasiya fakültəsində qazi məzunla görüş keçirilib

***Yanvarın 7-də Kitabxanaçılıq-informasiya fakültəsində fakültənin məzunu, Vətən müharibəsi qazisi, baş leytenant Qədir Daşdəmirovla görüş keçirilib.***

Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, tarixi zəfərlə başa çatan Vətən müharibəsində şəhid olan soydaşlarımızın unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.

Sonra qazi Qədir Daşdəmirova həsr olunmuş sənədli film nümayiş etdirilib, qəhrəmanın keçdiyi döyüş yolu haqqında məlumat verilib. Bildirilib ki, baş leytenant Qədir Daşdəmirov 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib, torpaqlarımızın azadlığı uğrunda böyük fədakarlıqlar göstərib. Ön xətdə ağır yaralanan Qədir Daşdəmirov YAŞAT Fondunun dəstəyi ilə qardaş Türkiyədə müalicə olunub. Onun qəhrəmanlıqları dövlətimiz tərəfindən layiqincə qiy-





mətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə baş leytenant Qədir Daşdəmirov Vətən müharibəsində göstərdiyi şücaətə görə “Qubadlının azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Vətən uğrunda” və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Qazi baş leytenant Qədir Daşdəmirov çıxış edərək 44 günlük Vətən müharibəsində keçdiyi döyüş yolundan bəhs edib. Müzəffər Azərbaycan ordusunun qalib zabiti olması ilə qürur duyduğunu bildirib, bundan sonra da hər an bir zabit kimi Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmrlərini yerinə yetirməyə hazır olduğunu ifadə edib. Qədir Daşdəmirov həmçinin qazi məzun və tələbələrə göstərilən yüksək diqqət və qayğıya görə BDU rəhbərliyinə təşəkkürünü bildirib.

# "Tariximiz və dəyərlərimiz" mövzusunda tədbir keçirilib

**Tarix fakültəsində keçirilən tədbirin qonağı Mənbəşünaslıq və tarixşünaslıq kafedrasının müdiri, Milli Məclisin üzvü, tarix elmləri doktoru, professor Anar İsgəndərov olub**

***Yanvarın 11-də keçirilən görüşdə Anar İsgəndərov öz həyat yolundan bəhs edib, tələbələrə öz tövsiyələrini verib.*** Azərbaycan tarixşünaslığının ən aktual məsələlərindən biri olan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında təcavüzkar Ermənistan ordusu üzərində möhtəşəm qələbə qazanan rəşadətli Azərbaycan ordusunun bütün şəhidlərin və günahsız qurbanların qisasını aldığını qeyd edən professor bu şanlı zəfərin Azərbaycan xalqının son iki yüz illik tarixində ən böyük qalibiyyət olduğunu və Qarabağın düşməndən azad edilməsi ilə Vətən tarixinin ən şanlı səhifəsinin yazıldığını diqqətə çatdırıb.





Qədim və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov da Azərbaycan tarixinin ən qədim dövrlərindən başlayaraq bu günümüzə qədər olan tədqiqatların elmi nəticələrindən söz açıb, bütün bu araşdırmaların 44 günlük Vətən müharibəsində nə qədər mühüm rol oynadığını xüsusilə qeyd edib.

Böyük maraqla qarşılanan məruzə ətrafında geniş fikir mübadiləsi aparılıb və tələbələrin çoxsaylı sualları cavablandırılıb.

Fakültə tərəfindən hazırlanan videoçarx izlənərək, xatirə şəkilləri çəkilib, Anar İsgəndərova doğum günü münasibətilə hədiyyə təqdim edilib.

# Kimya fakültəsi və SOCAR Polymer zavodunun əməkdaşları arasında görüş keçirilib

***Yanvarın 14-də Kimya fakültəsi ilə SOCAR Polymer zavodunun əməkdaşları arasında görüş keçirilib.***

Görüşdə Kimya fakültəsinin dekanı vəzifəsini icra edən Fuad Kərimli, Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri İbrahim Məmmədov, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri Rasim Alosmanov, SOCAR Polymer zavodunun baş direktoru Fuad Əhmədov və zavodun Rusiya üzrə təmsilçisi Qabil Mikayılov iştirak ediblər.

Görüşdə Kimya fakültəsinin fəaliyyəti, tədris prosesinin, tələbələrin istehsalat təcrübəsinin təşkili müzakirə olunub. F.Kərimli təhsil sahəsində həyata keçirilən islahatlar, elm, təhsil və sənayenin qarşılıqlı əlaqəsi və Kimya fakültəsinin əməkdaşlıq imkanları haqqında məlumat verib.



F.Əhmədov zavod haqqında geniş məlumat verib. BDU-nun Kimya fakültəsinin Kimya və Kimya mühəndisliyi ixtisasının tələbələri üçün bakalavr və magistratura səviyyələrində istehsalat təcrübəsinin əhəmiyyətindən və zavodda yaradılacaq şəraitdən söz açıb.

Görüşdə gələcək əməkdaşlıq üçün fəaliyyət planı müzakirə edilib. BDU-nun müəllimləri zavodun laboratoriyaları və idarəetmə mərkəzi ilə tanış olublar.

# Bakı Dövlət Universitetində qış imtahan sessiyası uğurla davam edir

***Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyası uğurla davam edir. Ənənəvi formada davam edən imtahanlarda şəffaflıq və obyektivlik tam təmin olunub.***

*Qış imtahan sessiyasının gedişi barədə BDU-nun müəllimlərinin fikirlərini öyrəndik:*



***Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov:*** "BDU-da post-pandemiya dövründə ənənəvi təhsilin bərpası, onun nəticələrinin qiymətləndirilməsi formalarında da özünü göstərəcəyini proqnozlaşdırmaq olardı. BDU Elmi Şurasının 2021-ci ilin dekabr ayında keçirilən iclasında imtahan sessiyasının keçirilməsi formaları haqqında qərar qəbul edilmişdir. BDU rektorunun imtahan sessiyasının yazılı və ya şifahi formada ədalətli, şəffaf keçirilməsi və tələbəmərkəzli təlimin prinsiplərinə uyğun təşkil olunmasına dair qərarı artıq yanvar ayının 5-dən icra olunur.

İmtahan sessiyasına hazırlıq əslində semestrin əvvəlindən başlamışdır desək, səhv etmərik. BDU-da dərs cədvəllərinin hazırlanması və təsdiqi ilə başlayan bu proses onlayn mühazirə və ənənəvi qaydada məşğələ dərslərinin təşkili, fərdi iş və kollokviumların vaxtında və xüsusi qrafik üzrə götürülməsi, bütövlükdə dərs jurnallarının normativlərə uyğun işlənməsi, semestr ərzində ənənəvi təhsilin atributlarının tətbiq edilməsi prosesi rektorluğun nəzarəti altında uğurla həyata keçirilib. Bütün bunlar, tələbələrin imtahan sessiyasına hazırlıq səviyyəsini əhəmiyyətli dərəcədə artırmışdır. Fikrimizi kurslar üzrə keçirilən imtahanların nəticəsi bir daha sübut edir. İşin ümumi ahəngi göstərir ki, BDU-da imtahan sessiyası uğurlu təşkil olunub".



***Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Aydın Məmmədov:*** "Son dövrlərdə qlobal miqyasda yayılan pandemiya bizi müasir dünyada sürətlə baş verən dəyişikliklərin yeni reallıqları ilə üz-üzə qoydu. Bu isə, həyatımızı, o cümlədən hər zaman bütün ictimai proses və dəyişikliklərin önündə gedən təhsilin yeni şəraitə, tələblərə uyğun surətdə qurulması zərurətini gündəmə gətirdi. Onlayn dərslər zamanı müxtəlif fənlər üzrə mühazirə və məşğələlərin yeni texnoloji tələblərə cavab verən tematik-təqvim planı üzrə məqsədyönlü şəkildə ardıcıl və sistematik təşkili, tələbələrin yeni öyrədici mühitə maraq və məsuliyyətinin artırılması üçün ən optimal metodların tətbiqini zərurətə çevirdi. Belə hesab edirəm ki, BDU-nun müəllimləri bu işin öhdəsindən uğurla gələ bildilər. İmtahan sessiyası hələ təzə başlayıb, lakin təhsilin distant şəkildə təşkil olunduğu 3 semestrdən sonra ənənəvi imtahanda tələbələrin yaradıcı, tənqidi və məntiqi təfəkkürə əsaslanaraq yüksək nəticələr əldə edə bilmələri belə düşünməyə əsas verir. Tələbələrin imtahan prosesində suallara konkret faktoloji materiallar, o cümlədən analiz, sintez, müqayisə, ümumiləşdirmə, qismən və tam təcridi sistemləşdirmə, abstraksiya, təsnifatlaşdırma kimi zəruri məntiqi əməliyyatlardan yetərincə faydalana bilmələri distant təhsil zamanı öyrədən və öyrənən tərəflərin işə ciddi, peşəkar və yüksək məsuliyyətlə yanaşmasını bir daha təsdiq edir. Tələbələr imtahan suallarını cavablandırarkən problemə səbəb-nəticə əlaqələrinə istinadən elmi-analitik yanaşma, o cümlədən fikrini hadisə və prosesləri təhlil edərək əsaslandıra bilmələri ilə diqqəti cəlb edirlər. Bu isə, tələbələrin dərin biliklərə malik olduqlarını əyani şəkildə təsdiq edir".



***Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müəllimi Mais Ağaverdiyev:*** "İlk olaraq onu qeyd etmək istərdim ki, imtahan sessiyası çox yüksək səviyyədə təşkil edilib. Koordinator müəllimlər də imtahanların daha yaxşı keçirilməsində əllərindən gələni edirlər. Tələbələrin aktivliyi hiss olunur. Eləcə də Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən də imtahan prosesinə ciddi nəzarət olunur. Təbii ki, ənənəvi təhsilə dönüş hamıdan əvvəl biz müəllimləri sevindirir. Çünki pandemiya səbəbindən təxminən üç semestr ənənəvi tədrisdən uzaq qalmışdıq. Düzdür, distant formada olsa da, təhsil davam etdirilmişdir. Sevindirici haldır ki, 2021-2022-ci tədris ilində ənənəvi formada tədrisə başladıq. Ümid edirik ki, bir daha onlayn təhsilə geri dönmək məcburiyyətində qalmarıq. Daha bir məqama toxunmaq istərdim. Bildiyiniz kimi, dil fənlərinin imtahanı bu sessiyada şifahi formada aparılır. Bu, müəllim-tələbə arasında imtahan zamanı ünsiyyətə daha yaxından imkan verir. Çünki yazılı imtahanda ola bilər hətta əlaçı tələbə 80-90 sual arasından 4-5 sualı öyrənə bilməsin və imtahanda da təsadüfən həmin suallar düşsün. Şifahi imtahanda isə belə bir hal yaşansa belə, onu digər suallarla kompensasiya etmək imkanı olur. Hər halda müəllim ən azından 1 semestr tələbələrlə ünsiyyətdə olarkən hansı tələbənin hansı səviyyəyə malik olduğunu bilir. Sonda qış imtahan sessiyasında bütün tələbələrimizə müvəffəqiyyətlər arzu edirəm".



***Filologiya fakültəsinin müəllimi Pərvin Eyvazov:*** "Pandemiya tədrisin təşkilində yeni bir mərhələyə yol açdı və bu müddətdə təhsil subyektlərini düşündürən bir çox vacib məsələlər gündəmə gəldi, müzakirə olundu. Demək olmaz ki, pandemiya tədris prosesinə ancaq mənfi təsir göstərdi. Bu dövr ərzində həm onlayn dərslərin, həm də imtahanların təşkilində xeyli təcrübə qazanıldı. Hesab edirəm ki, bu təcrübədən bundan sonra da faydalanmaq, yeri gəldikcə tədris prosesində bunlardan yararlanmaq olar. Əgər epidimioloji vəziyyət daha da yaxşı olarsa, növbəti semestr tədrisin tam şəkildə əyani olmasını həyata keçirmək olar. Buna rəğmən, distant tədrisin təcrübəsindən də tamamilə uzaqlaşmaq olmaz. Bu il ənənəvi tədrisə qayıdışı müəllimlər və tələbələr müsbət qarşıladı və bu proses indi də uğurla davam edir. Nəzərə alsaq ki, Universitet tədrisin təşkilində hibrid formadan istifadə etdi, özü də proses yeni elektron tədris platforması – BLACKBOARD üzərindən həyata keçirildi, bu müddətdə müəllimlər də, tələbələr də böyük iradə nümayiş etdirdi. İmtahanların mövcud şəraitə və sanitar-epidimioloji tələblərə uyğun təşkilini, imtahan prosesinin operativ və şəffaf idarə olunmasını da xüsusilə qeyd etmək lazımdır. Həmçinin semestr imtahanlarının təşkili ilə bağlı bəzi qərarlar yüksək təşəbbüs kimi qiymətləndirilə bilər. Məsələn, praktik fənlərdən (İşgüzar və akademik kommunikasiya), o cümlədən bəzi ixtisas fənlərindən imtahanların şifahi şəkildə təşkil olunmasını və hazırda da uğurla davam etdirilməsini qeyd etmək olar. Hesab edirəm ki, pandemiya bitdikdən sonra da bu ənənəni davam etdirmək olar. İmtahan Qərargahı tərəfindən qiymətindən razı qalmayan tələbələrin təklif və şikayətlərinin operativ cavablandırılması, onların yazı işlərinin təkrar yoxlanılmasının təşkil edilməsini də göstərmək olar. Bu gün artıq bu proseslər operativlik və inam üzərində qurulur. Düşünürəm ki, bu amillər tədrisin təşkilində, o cümlədən biliyin qiymətləndirilməsində, tələbə-müəllim-universitet zəncirinin möhkəmlənməsində vacib faktordur".

**Müsahibəni hazırladılar:**
Nərminə Əsədova
Gülabə Məmmədzadə

# TƏHSİN MÜTƏLLİMOV - 90



***18** yanvarda tanınmış ədəbiyyatşünas alim və müəllim, Dövlət mükafatı laureatı, Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Təhsin Mütəllimovun anadan olmasının 90 ili tamam olub.*

1953-1956-cı illərdə BDU-nun Filologiya fakültəsində təhsil alan T.Mütəllimov 1959-1961-ci illərdə Universitetin aspirantı olmuşdur. 1963-cü ildə “Ə.Əbülhəsənin bədii nəsri” mövzusunda namizədlik, 1975-ci ildə isə “Ə.Haqverdiyevin sənətkarlığı” mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Alim 1977-ci ildə professor elmi adını almış, 2014-cü ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

Bakı Dövlət Universitetində yüksəkixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətləri olan Təhsin Mütəllimov Azərbaycanın filologiyasının görkəmli simaları - Abbas Zamanov, Əkbər Ağayev, Əzizə Cəfərzadə, Mir Cəlal, Pənah Xəlilov, Cəlal Abdullayev kimi nəhəng alimlərin çalışdığı akademik mühitdə yetişmiş, onların əhatəsində peşəkar alim və müəllim kimi formalaşmışdır.

Dünya ədəbiyyatına, nəzəri-estetik düşüncə tarixinə dərindən vaqif olan, ciddi elmi fəaliyyət sərgiləyən Təhsin müəllimin ədəbiyyatşünaslığın nəzəri problemlərinin təhlili və tədqiqində mühüm xidmətləri olmuşdur. Mövzu seçimindən və problemlərin qoyuluşundan tutmuş əsərlərinin dili və üslubuna qədər hər şeyə alim həssaslığı və məsuliyyəti ilə yanaşan ziyalının elmi görüşləri öz dəstxətti ilə seçilir.

Təhsin Mütəllimov elmə ciddi münasibət bəsləməsi, özünə qarşı ifrat tələbkarlığı səbəbindən yaradıcılıqda həcm ardınca qaçmamış, yalnız zəruri bildiyi mövzulara müraciət etmişdir. Onun elmi yaradıcılığında Azərbaycanın görkəmli yazıçısı və mütəfəkkiri Əbdürrəhim bəy Haqverdiyevin ədəbi irsi önəmli yer tutur. Elmi-nəzəri səviyyəsi ilə seçilən bu araşdırmada Əbdürrəhim bəyin mövzu, problem və janr baxımından zəngin, çoxşaxəli yaradıcılığı bədii sənətkarlıq kontekstində təhlil olunmuşdur. Alimin sözügedən araşdırmasının başqa bir özəlliyi burada Əbdürrəhim bəyin yaradıcılıq poetikasının bütövlükdə mənsub olduğu ədəbi məktəb fonunda dəyərləndirilməsidir. Bu isə, təbii olaraq, yazıçının ədəbiyyat tarixindəki mövqeyinin müəyyənləşdirilməsinə imkan vermişdir.

Ömrünün 65 ilini Bakı Dövlət Universitetinə həsr edən T.Mütəllimov elmi fəaliyyəti ilə yanaşı, peşəkar müəllim kimi də tanınmış, yüzlərlə gənc mütəxəssisin yetişməsində əvəzsiz rol oynamışdır.

Elmi-pedaqoji fəaliyyəti BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrası ilə bağlı olan alim kafedranın klassik ənənələrinin davam etdirilməsinə və yeni alimlər nəslinin yetişməsinə də öz dəyərli töhfələrini vermişdir. O, bu kafedrada müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmış, yüzlərlə tələbənin qəlbinə yol tapmışdır. Tələbələri hər zaman onun dərsə ciddi münasibətindən, içdən, ürəkdən sevərək mühazirələr söyləməsindən və tələbələrlə səmimi ünsiyyətindən danışırlar.

*Fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilən Təhsin Mütəllimov 1991-ci ildə “Əbdürrəhim bəy Haqverdiyevin poetikası” kitabına görə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı olub, 2001-ci ildə “Qızıl qələm” mükafatına, 2017-ci ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. 2019-cu ildə “Bakı Dövlət Universitetinin 100 illiyi” yubiley medalı və “3-cü dərəcəli əmək ordeni” və 2022-ci ildə AMEA-nın Fəxri fərmanı ilə təltif olunub.*

Təhsin müəllim bu gün də - yaşının müdrik çağında yorulmadan çalışır, Universitetin auditoriyalarını və dəhlizlərini öz ziyalı nuru ilə işıqlandırır. Bugünkü nəsil fəxr edir ki, adı təhsil tariximizə ədəbi həkk olmuş bu gözəl alim və ziyalı ilə çiyin-çiyinə çalışır, onun təcrübəsindən faydalanır. İnanırıq ki, keşməkeşli ömür yolu keçən Təhsin müəllim hələ uzun illər elm və təhsilimizə töhfələr verəcək, öz zəngin təcrübəsi ilə gənclərin yoluna işıq tutacaqdır.

Təhsin müəllimi 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

# Riyaziyyat sahəsi üzrə tələbələrin "Qış Düşərgəsi"

***5-13 fevral tarixlərində Təhsil İnstitutunun təşkilatçılığı ilə Quba rayonunda tələbələrin qış düşərgəsi (Winter bootcamp) təşkil ediləcək.***

Düşərgədə ali təhsil müəssisələrinin riyaziyyat və texniki ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri, həmçinin magistratura səviyyəsi üzrə təhsil alanlar iştirak edə bilərlər.

Düşərgədə iştirak etmək istəyən tələbələr 24 yanvar 2022-ci il tarixinədək https://anket.edu.az/link/174 linki vasitəsilə qeydiyyatdan keçməli və ali riyaziyyat üzrə baza biliklərin ("Riyazi analiz", "Cəbr və ədədlər nəzəriyyəsi" fənləri üzrə) yoxlanılması məqsədilə təşkil olunacaq test imtahanında uğur qazanmalıdırlar. Test imtahanının yanvarın sonunda keçirilməsi nəzərdə tutulur.

Düşərgə çərçivəsində tələbələrə qeyd olunan istiqamətlərdə təcrübəli müəllimlər tərəfindən xüsusi hazırlanmış təlimlər təşkil ediləcək. Təlimlərin sonunda keçiriləcək test imtahanının nəticələrinə uyğun olaraq, ilk 3 yeri qazanan iştirakçıya qiymətli hədiyyələr və sertifikat, bütün iştirakçılara isə sertifikat təqdim olunacaq. İştirakçıların əylənərək öyrənməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə düşərgədə, həmçinin müxtəlif idman və bilik yarışları təşkil olunacaq.

Qeyd edək ki, düşərgənin keçirilməsində məqsəd tələbələr arasında ali riyaziyyat sahəsinə olan marağın artırılması, riyaziyyatın yeni texnologiyalar və süni intellekt sahəsində tətbiqi dairəsinə dair məlumatların verilməsi və qış tətili dövründə tələbələrin riyazi biliklərinin gücləndirilməsidir.

# Cahangir Məmmədli - 80

***26** yanvarda tanınmış jurnalist və ictimai xadim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Bakı Dövlət Universitetinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin anadan olmasının 80 ili tamam olub.*



1964-1968-ci ilərdə BDU-nun Filologiya fakültəsinin Jurnalistika şöbəsində təhsil alan C.Məmmədli 1973-cü ildə “Müasir Azərbaycan ədəbi dilinin mətbuat üslubu” mövzusunda namizədlik, 2008-ci ildə isə “Azərbaycanda jurnalistikanın müasir inkişaf meyilləri” mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir.

1973-cü ildən BDU-nun Mətbuat tarixi və ideoloji iş metodları (indiki Milli mətbuat tarixi) kafedrasında elmi-pedaqoji fəaliyyətə başlamış, 1993-2005-ci illərdə həmin kafedranın, 2005-2021-ci illərdə isə Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi (indiki Yeni media və kommunikasiya nəzəriyyəsi) kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Bakı Dövlət Universitetində yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri olan Cahangir Məmmədli Azərbaycan jurnalistikasının görkəmli simaları - Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Qulu Xəlilov, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Famil Mehdi kimi alimlərin çalışdığı akademik mühitdə yetişmiş, onların əhatəsində peşəkar alim və müəllim kimi formalaşmışdır.

Cahangir Məmmədli zəngin və geniş spektrli yaradıcılığı ilə fərqlənir. Onun indiyədək 500-dən çox elmi və publisistik məqaləsi dərc edilmişdir. O, 20-yə yaxın kitabın müəllifi, onlarla kitabın redaktoru və ön söz müəllifidir. C.Məmmədli İctimai Televiziya və Radio Yayımları haqqında qanunun hazırlanmasında yaxından iştirak etmişdir.

Fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Cahangir Məmmədli müxtəlif mükafat və fəxri adlara layiq görülüb. “Zərdabi” mükafatı (2003), “Ali Media” mükafatı (2012) bunlardan bəziləridir. 2019-cu ildə “Bakı Dövlət Universitetinin 100 illiyi” yubiley medalı, “Şöhrət” ordeni ilə təltif olunub. 2005-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ömrünün 50 ilini Bakı Dövlət Universitetinə həsr edən C.Məmmədli elmi və jurnalistlik fəaliyyəti ilə yanaşı, peşəkar müəllim kimi də yüzlərlə gənc mütəxəssisin yetişməsində böyük rol oynamışdır. O, çoxsaylı tələbələrinin ürəklərinə yol tapmağı da bacarmışdır. Tələbələri hər zaman onun dərsə ciddi münasibətindən, sevərək oxuduğu mühazirələrindən və onlarla səmimi ünsiyyətindən danışırlar.

Cahangir müəllim bu gün də - yaşının müdrik çağında yorulmadan çalışır, Universitet auditoriyaları və dəhlizlərini ziyalı nuru ilə işıqlandırır. Bugünkü nəsil fəxr edir ki, Cahangir müəllim kimi gözəl alim və ziyalı ilə çiyin-çiyinə çalışır, onun təcrübəsindən faydalanır. İnanırıq ki, keşməkeşli ömür yolu keçən Cahangir müəllim bundan sonra da elm və təhsilimizə, jurnalist kadrların yetişməsinə töhfələr verəcək, zəngin təcrübəsi ilə gənclərin yoluna işıq tutacaqdır.

Cahangir müəllimi 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, elmi-pedaqoji və jurnalistlik fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

# BDU-nun alimi Özbəkistan universitetlərinin tələbə və gənc tədqiqatçılarına ustad dərsi keçib



***Yanvarın 11-də Geodeziya və kartoqrafiya kafedrasının müdiri, professor Məqsəd Qocamanov Daşkənd Dövlət Universiteti və Daşkənd İrriqasiya və Kənd Təsərrüfatının Mexanizasiyası Universitetinin dəvəti ilə həmin universitetlərin tələbə, magistr, doktorant və professor-müəllim heyətinin birləşmiş seminarında ustad dərsi keçib. Elmi seminarda M.Qocamanov "Geodeziya elminin əsas elmi məsələsi və onun həll metodları" mövzusunda mühazirə oxuyub.***

Mühazirədə alim geodeziyanın əsas elmi məsələsinin məzmunu və bu məzmunun elmi-texniki tərəqqi ilə müxtəlif dövrlərdə dəyişilməsi və geodeziyanın əsas elmi məsələsinin həll metodları haqqında məlumat verib. Geodeziyanın əsas elmi məsələsinin meydana çıxmasından keçən iyirmi altı əsr ərzində onun məzmununun elmi-texniki tərəqqiyə uyğun olaraq zaman-zaman dəyişikliyə məruz qaldığı bildirilib. Bu məsələnin müasir məzmunu və onun ciddi həll üsulları M.S.Molodenski nəzəriyyəsinə, praktiki həlli isə raket texnologiyası və kosmonavtikanın inkişafına əsaslanır. Təbii və süni səma cisimlərinin müşahidələrinə əsaslanan kosmik geodeziya metodları isə geodeziyanın əsas elmi məsələsinin həllində əhəmiyyətlidir və dəqiqliyin artırılmasına xidmət edir.

Elmi seminar iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Alimimiz Yaponiyanın "Rozetli Qızıl Şəfəqli Gündoğar Ordeni" ilə təltif olunub



***Yanvarın 31-də Yaponiyanın Azərbaycandakı səfirinin iqamətgahında Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri, professor Oqtay Cəlilbəyliyə "Rozetli Qızıl Şəfəqli Gündoğar Ordeni"nin təqdim olunması mərasimi keçirilib.***

Mərasim Azərbaycanın və Yaponiyanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada çıxış edərək professor Oqtay Cəlilbəylinin Azərbaycanda yapon dili və mədəniyyətinin davamlı təbliğinə və ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına verdiyi töhfələrə görə bu ordenə layiq görüldüyünü bildirib. Sonra səfir Cuniçi Vada azərbaycanlı alimə "Rozetli Qızıl Şəfəqli Gündoğar Ordeni"ni təqdim edib.

Qeyd edək ki, 1875-ci ildə təsis olunan bu ordenin səkkiz dərəcəsi var. Orden Yaponiya ilə dostluq əlaqələrinin inkişafında xüsusi xidmətləri olan əcnəbi vətəndaşlara Əlahəzrət İmperatorun adından təqdim edilir.

# Xərçəng hüceyrələrinə qarşı inhibirləşdrici təsirə malik olan gümüş nanohissəciklərinin sintezi istiqamətində tədqiqatlar uğurla davam edir

***Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının müdiri vəzifəsini icra edən professor Rövşən Xəlilovun və AMEA-nın vitse- prezidenti, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynovanın həmmüəllifi olduqları "Ananas comosus meyvə qabıqlarından istifadə edərək gümüş nanohissəciklərinin ekoloji cəhətdən təmiz sintezi: antixərçəng və antimikrob təsirlər" (Eco-friendly Synthesis of Silver Nanoparticles Using Ananas comosus Fruit Peels: Anticanser and Antimicrobial Activities) adlı məqaləsi Web of Science bazasında Q1 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan "Bioinorganic Chemistry and Applications" jurnalında dərc olunub.***

Məqalədə, Ananas comosus meyvə qabıqlarından istifadə edərək gümüş nanohissəciklərinin yaşıl sintezindən bəhs edilir. Son dövrlərdə metal nanohissəcikləri, xüsusən də gümüş nanohissəciklərinin bir çox istiqamətlərdə, o cümlədən tibdə geniş istifadə olunduğu məlumdur. Bu baxımdan görülən elmi-tədqiqt işi yüksək aktuallığa malikdir. Aparılan tədqiqatlar nəticəsində alınmış gümüş nanohissəcikləri bir çox müasir metodlardan istifadə olunaraq tədqiq edilib (UV-Spektrofotometriya, Skanedici Elektron Mikroskopu, XRD analiz və s.). Həmçinin, məqalədə gümüş nanohissəciklərinin bəzi patogen mikroorqanizmlərə qarşı antimikrob, o cümlədən xərçəng hüceyrələrinə qarşı inhibirləşdrici təsiri müəyyən edilmişdir.

# BDU-nun doktorantının məqaləsi yüksək impakt faktorlu jurnalda çap olunub

Mexanika-riyaziyyat fakultəsinin Cəbr və həndəsə kafedrasının doktorantı Təranə Sultanovanın elmi rəhbəri professor Arif Səlimov ilə birlikdə hazırladığı "2-jet laylanmalarının holomorf metrikləri haqqında" adlı məqaləsi ofisi İtaliyada olan və "Springer" tərəfindən nəşr olunan "Mediterranean Journal of Mathematics" jurnalının 2022-ci ilin 1-ci nömrəsində çap olunub. Bu jurnal "Web of Science" (Clarivate Analytics) elmi məlumatlar platformasının nüfuzlu SCI-Expanded indeksinə daxildir (impakt faktor: 1.400, Q2)

Məqalədə 2-ci mərtəbədən olan toxunan laylanmaların total fəzasına kommutativ nilpotent cəbr üzərində qurulmuş holomorf çoxobrazlıların real modeli kimi baxılaraq bu laylanma fəzalarında deformasiya olunmuş lift adı altında yeni Riman metriki daxil edilmiş və onun diferensial-həndəsi xassələri öyrənilmişdir.

# Alimin həmmüəllifi olduğu iki məqalə impakt faktorlu jurnalda

**Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və Virusologiya Elmi-Tədqiqat Laboratoriyasının müdiri Xudaverdi Qənbərovun həmmüəllifi olduğu 2 icmal məqalə Web of Sience bazasında indekslənən jurnalda cap olunub.**

"SARS-CoV-2 receptor ACE2 and molecular pathway to enter target cells during infectio"n ("İnfeksiya zamanı SARS-CoV virusunun ACE2 reseptoru və hüceyrəyə daxil olma molekulyar yolu") adlı məqalə Reviews and Research in Medical Microbiology jurnalının 2022-ci il üzrə birinci sayında çap olunub. Məqalədə qeyd olunub ki, yeni SARS-CoV-2, insanlarda kəskin respirator infeksiya yaradan virusdur. Bu virus sahib hüceyrəni dəyişən molekulyar mexanizmlə yoluxdurur. Buna görə də virusun tez və dəqiq diaqnostikası ona qarşı düzgün müalicənin seçilməsində həlledici rol oynayır. Çap olunan icmal məqalədə hazırki dövrdə məlum olan 7 HCoV viruslarının genomunun rekombinasiyası və təkamül nöqteyi nəzərdən müqayisəli analizi aparılıb və SARS-CoV-2 virusunun sahib hüceyrəyə daxil olma yoluna nəzər salınıb. Yekun nəticələr, klinisistlərə koronavirus infeksiyasının yeni səmərəli diaqnostik metodunu hazirlamağa imkan verəcəkdir.

Alimin həmmüəllifi olduğu "Current drugs with potential for coronavirus disease 2019 therapy: a literature review" ("2019-cu il koronavirus xəstəliyinin terapiyası üçün müasir dərman vasitələri: ədəbiyyat icmalı") adlı icmal məqalə də eyni adlı jurnalda çap olunub. İcmal məqalədə 2019-cu il (COVID-19) koronavirus xəstəliyi ÜST tərəfindən pandemiya kimi elan edilməsi, 2020-ci ildə isə dəqiq terapevtik vasitəsi olmayan və təsdiqlənməyən xəstəlik yer kürəsinə yayıldığı qeyd olunub. Təklif olunan lopinovir və ritonavir preparatları xəstələrin müalicəsində səmərəli olmadı, Remdisiver preparatı da ümidləri doğlutmadı. Arbidol və favipiravir preparatları viruslara qası nisbətən yaxşı nəticə göstərdilər. Xəstəliyin ilkin mərhələsində interferonların səmərəli olduğu təsdiq olunmuşdur. Kortikosterollar koronavirus xəstələrində ölüm hallarını azaltmışlar. Son dövrdə insanı rekombinat yolu ilə alınmış enzim-2, niklozamid və ivermentin in-vitro eksperimentlərdə yaxşı nəticələr göstərmiş və onların in-vivo sınaqları koronavirus infeksiyasına nəzarət etməyə imkan verəcəkdir.

# BDU-nun nəzdində yeni Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi yaradılıb

***Ölkənin aparıcı elm və təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin nəzdində müasir Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi yaradılıb. Öz istedad və imkanlarına güvənən innovativ, yaradıcı tədqiqatçıları cəlb etmək, yeni nəsil alimlərin yetişməsinə töhfə vermək, təhsil və elm sahəsində transformativ təkmilləşdirmələr aparmaq, bir sözlə, təhsil, elm və sənayeni uzlaşdırmaq məqsədilə yaradılan mərkəzdə ümumilikdə 9 laboratoriyada 70-dən çox tədqiqatçı fəaliyyət göstərəcək.***



Mərkəzdə yaradılacaq yeni sənayeyönümlü laboratoriyalarda tədqiqatçılar - alimlər, tələbə, magistrant və doktorantlar, eləcə də sənayedə çalışan peşəkar mütəxəssislər sənaye və biznes sektorları üçün yeni həllər işləyib hazırlayacaq, bununla da elm və təhsil sektorunu sənaye və biznes dünyasına daha da yaxınlaşdıracaq.

Mərkəzin əsas ilkin hədəfi sənaye sektorları - neft və qaz sənayesi, mədənçilik, kənd təsərrüfatı və qida təhlükəsizliyidir. Tədqiqat istiqamətləri isə nano-texnologiyalar, molekulyar biologiya və virusologiya, biotexnologiya, sənaye kimyası, analitik kimya, ekologiya, Yer elmləri, astrokosmik və atmosfer elmləri, həmçinin rəqəmsal tədqiqatlardır. Qeyd olunan sahələrdə sənaye sifarişi ilə bir sıra layihələrin icrasına artıq başlanılıb.

Qeyd edək ki, hazırda ölkənin sənaye sektorunda fəaliyyət göstərən bir sıra müəssisələr laboratoriya ölçmələrini ölkə hüdudlarından kənarda aparmağa məcburdur. BDU-nun Mükəmməllik Mərkəzi kimi qurumların sayəsində artıq bunu Azərbaycanda da həyata keçirmək mümkün olacaq. Mərkəzin fəaliyyəti nəticəsində tədqiqatçılar müasir tipli, beynəlxalq standartlara cavab verən yeni mühitdə fəaliyyət göstərəcək, beynəlxalq təcrübədən yararlanacaq, yeni nəsil tədqiqatçılar üçün geniş imkanlar yaradılacaq.

Azərbaycanda ilk dəfə yaradılan bu tipli Mərkəzin əsas xüsusiyyətlərindən biri də onun təkcə BDU tələbə və əməkdaşları üçün deyil, ölkənin bütün yüksəkixtisaslı tədqiqatçıları, istedadlı tələbələri üçün açıq olmasıdır.

Mükəmməllik Mərkəzi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə əməkdaşlıq çərçivəsində innovativ həllər üçün qarşılıqlı maraq əsasında dövlət, özəl və sənaye sektoru arasında tərəfdaşlığın inkişaf etdirilməsinə dəstək verəcək. Bunun üçün tələbələr və gənc tədqiqatçılar arasında innovativ sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə BDU-da KOBİA-nın dəstəyi ilə İnkubasiya və Akselerasiya Kolabı da təşkil ediləcək.

BDU-nun təsis etdiyi BUİLD Məhdud Məsuliyyətli Cəmiyyəti texnologiya transfer ofisi kimi fəaliyyət göstərməklə Mərkəzin infrastrukturundan gənclərin faydalanması, özəl sektorla universitet arasında əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi, startaplar və biznes ideyaları üzrə “nəzəriyyədən biznesə” prinsipinin reallaşdırılması istiqamətində fəaliyyət göstərir.





# "Müasir iqtisadi reallıqlarda Azərbaycanda karyera" mövzusunda təlim keçirilib

***Yanvarın 31-də Bakı Dövlət Universiteti və ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə "Dinamik Gənclik Həftəsi 2" layihəsi çərçivəsində "Müasir iqtisadi reallıqlarda Azərbaycanda karyera" mövzusunda təlim keçirilib.***

Təlimdə "Business Consultancy"nın peşəkar idarəçisi Fəxri Ağayev müasir iqtisadi reallıqlarda Azərbaycan iş dünyasında uğurlu karyera qurmaq haqda məlumat verib. Təlimçi peşəkar yanaşmaları və şəxsi təcrübəsi əsasında tələbələrə uğurlu karyera quruculuğundan danışıb. Qeyd edib ki, uğurlu karyeraya gedən yolda ali təhsillə yanaşı, şəxsi keyfiyyətlər, sosial bacarıqlar, ünsiyyət və danışıq qabiliyyəti də çox böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən tələbələr təhsil müddətini səmərəli keçirməli və öz üzərilərində çox işləməlidirlər. Uğurlu karyeraya nail olmaq istəyən gənclər onun bünövrəsini tələbəlik dövründə qoymalıdırlar. Könüllülük fəaliyyətinə diqqət çəkən F.Ağayev bunun peşəkar karyera quruculuğunda xüsusi əhəmiyyətinin olacağına əminliyini ifadə edib. Sonda könüllülərin sualları cavablandırılıb.

# "BDU Könüllüləri"nin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş tədbir

***Yanvarın 21-də Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə "BDU Könüllüləri"nin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Ekologiya və torpaqşünaslıq fakültəsinin dekan müavini Fətəli Hüseynov, professor Sevda Süleymanova, "BDU könüllüləri"nin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Leyla İmaməliyeva çıxış ediblər.***

Tədbirdə çıxış edənlər 20 Yanvar - Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, azadlıq istəyinin oyanış günü barəsində, baş verən hadisələr haqqında məlumat veriblər. Şəhidlərimizin əziz xatirəsi yad edilib, tələbələr 20 Yanvar gününə həsr olunmuş şeirlər səsləndiriblər.

Sonda 20 Yanvar haqqında videoçarx nümayiş olunub.

# “Çıxış üçün mətnin düzgün qurulması” mövzusunda təlim

***Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə BDUTEDx CLUB-un növbəti təlimi keçirilib. Təlimçi Leyla Yaqublu “Çıxış üçün mətnin düzgün qurulması” mövzusunda çıxış edib.*** Leyla Yaqublu maraqlı müzakirə və fikir mübadiləsi nəticəsində auditoriyaya düzgün mesajın ötürülməsinin formalarından bəhs edib. Hazırlanacaq mətnin üslubunun, janrının, bədii və elmi əsərin bəsitliyinə, kamilliyinə, dərinliyinə xüsusi diqqət yetirməli olunan məqamlara toxunub. Nəzəri və praktiki hissələri xüsusi vurğulayıb. Təlim çərçivəsində hazırlanan mətn haqqında çıxış edərkən özgüvənli duruşun tənzimlənməsi, bədən dilinin əsası olan əllərdən çıxış zamanı necə istifadə edilməli olduğu və düzgün göz kontaktının əsasları haqqında danışıb.



Mətnin əlaqələnməsində onu, özünü sözləri ilə yanaşı, cümlələrin əsasən eyni quruluşda olmasının vacibliyi barədə də məlumat verib.

Təlim interaktiv şəkildə və qarşılıqlı fikir mübadiləsi əsasında aparılıb, təlimçi tələbələrin çoxsaylı suallarını cavablandırılıb.

# 60 illik ləyaqətli və mənalı ömrün izi ilə

***Elm və təhsil bəşəriyyətin yaratdığı ən böyük mənəvi sərvət olub, dahilərin qoyduğu kərpiclərlə tikilən və bugünkü öz ecazkar mənzərəsini almış möhtəşəm bir məbəddir. Bu məbədin bugünkü mənzərəsinin yaranmasında, formalaşmasında minlərlə elm və təhsil adamları öz ömürlərini sərf ediblər. Bu ənənəni şərəflə və uğurla davam etdirən alimlərimizdən biri də Azərbaycan fizika məktəbinin tanınmış nümayəndəsi, Bakı Dövlət Universitetinin Nəzəri fizika kafedrasının müdiri Məmməd Rəcəbovdur.*** Məmməd Rəcəbov 1962-ci il yanvar ayının 5-də ziyalı bir ailədə - Rəcəb müəllim və Nazilə xanımın ailəsində dünyaya göz açıb. Məmməd Rəcəbovun əsli Azərbaycanın dilbər guşələrindən olan Qax rayonunun İlisu kəndindəndir. Dağlar qoynunda yerləşən bu səfalı diyar Azərbaycan ictimaiyyətinə, təhsilinə və elminə dəyərli ziyalılar bəxş edib. Məmməd Rəcəbovun atası Rəcəb müəllim də məhz belə ziyalılardan biridir.

Məmməd Rəcəbov1968-ci ildə Zaqatala rayon 3 saylı orta məktəbin birinci sinfinə getmiş və 1978-ci ildə həmin məktəbi qızıl medalla bitirmişdir. O, 1978-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə qəbul olmuş və 1983-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. Məmməd Rəcəbov ali məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Nəzəri fizika ixtisası üzrə aspiranturasına daxil olmuş və professor Abdulla Muxtarov, professor İsmət Nəcəfov kimi görkəmli alimlərlə birgə elmi tədqiqat işləri aparmağa başlamışdır. O, 1990-cı ildə Bakı Dövlət Universitetində "Kristal



mühitlərdə yüksək enerjili qeyri-elastiki elektromaqnit proseslər" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, "Nəzəri fizika" ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini almışdır. Məmməd Rəcəbov ilk əmək fəaliyyətinə 1983-cü ildə AMEA-nın Fotoelektronika İnstitutunda mühəndis vəzifəsi ilə başlamışdır və 1987-ci ilə qədər bu vəzifədə çalışmışdır, 1987-1990-cı illərdə isə AMEA-nın Mexanika və Riyaziyyat İnstitutunda mühəndis vəzifəsində çalışmışdır. O, 1990-cı ildən Bakı Dövlət Universitetinin Nəzəri fizika kafedrasında işə başlamış və hazırda həmin kafedraya rəhbərlik edir.

Məmməd Rəcəbov fizika fakültəsində bakalavr və magistr pilləsində təhsil alan tələbələrə Elektrodinamika, Kvant mexanikası, Elementar zərrəciklər fizikası, Atom nüvəsi nəzəriyyəsi kurslarından mühazirələr oxuyur və məşğələ dərsləri aparır. Məmməd Rəcəbov "Kristal mühitlərdə elektromaqnit leysanı" və "Kristal mühitlərdə yüksək enerjili qeyri-elastiki elektromaqnit prosesləri" sahələri üzrə elmi tədqiqat işləri aparır. O, 130-dan çox elmi məqalənin və metodik vəsaitin müəllifidir və onlarla beynəlxalq konfranslarda samballı məruzələrlə çıxışlar edib.

Məmməd Rəcəbov ikinci ali təhsil də alıb. Belə ki, O, 1992-1997-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində qiyabi təhsil alaraq hüquqşünaslıq ixtisasına da yiyələnmişdir. Savad gendəmi yaranıb formalaşır, yoxsa insan özü zəhmətilə buna yiyələnir? Məmməd müəllimin yüksək bilik və savad almaq, bu bilikləri yüksək peşakarlıqla tələbələrə çatdırmaq, cəmiyyət üçün faydalı insan kimi yetişmək istəyi öz zəhmətsevərliyi ilə yanaşı gendən də gəlir. Qeyd etmək istəyirəm ki, Məmməd Rəcəbov, Almaniyanın nüfuzlu "Humbold" mükafatını alan yeganə azərbaycanlı və dünya şöhrətli alim Məsud Əfəndiyevin doğma xalası oğludur.

Yaxşı alim olmaq üçün bəzən insana 20 il, 30 il kifayət edir, ləyaqətli insan olmaq üçün isə bəzən bir ömür belə kifayət etmir. Yalnız ləyaqətli və xeyirxah insanlar sevilir və yaddaşlarda hörmətlə qalır. Yüksək mədəniyyətə və dünyagörüşünə malik olan Məmməd Rəcəbov məhz belə şəxsiyyətlərdəndir. Zəngin biliyi ilə cəmiyyətə töhfə verən, insanlara insanlığı nümunə olan Məmməd Rəcəbov şəxsiyyətinin gözəlliyi onun xarakterinin təbiiliyindən irəli gəlir. Onu insanlara sevdirən gözəl qəlbi, təmiz vicdanı, sadəliyi, zəhmətkeşliyi, ədalətliyi, doğruluğu, halallığı, etibarlığı, təvəzökarlığı, verdiyi sözə qarşı ciddiliyi, dərin savadı və vətənpərvərliyidir. O, əsl ziyalı və bütöv bir şəxsiyyətdir. İnsan həyatının əsl qayəsi insanlıq olduğu üçün, hesab edirəm ki, Məmməd müəllim həyatda əsl məqsədinə çatmışdır. Məmməd Rəcəbovun uğurlarının arxasında çəkdiyi böyük zəhməti və bir də ona daim mənəvi dayaq olan ailəsi durur. Məmməd müəllimin gözəl ailəsi var. Həyat yoldaşı Nərgiz xanım həkimdir, oğlu Rəcəb və qızı Nəzrin isə bank sistemində çalışırlar.

Bu gün Bakı Dövlət Universitetinin əməkdaşlarının hər birinin dərin hörmətini qazanmış və tələbələrin sevimlisi gözəl alim, ustad pedaqoq, dəyərli ziyalı, səmimi insan Məmməd Rəcəbovun 60 illik yubileyidir. Məmməd Rəcəbov ömrünün bəlli bir zirvəsində qərar tutub. O, zirvədən dönüb geriyə baxanda onun fəxr etməyə, qürur duymağa mənəvi haqqı var. Çünki O, 60 illik ömürünün hər gününü sevgiylə, zəhmətlə, halallıqla və ləyaqətlə yaşayıb. Məmməd Rəcəbov tələbəlik illərimin ən sevilib, seçilən müəllimlərimdən olub. Uzun illərdir ki, sevimli müəllimimlə həm də yaxın dostuq. Onu yaxından tanıyıb, onun elminə, insanlığına valeh olmamaq, bir sözlə bu möhtəşəm insanı sevməmək mümkün deyil. "Yubiley yaşınız mübarək olsun" adlı şeirimi Məmməd Rəcəbovun 60 illik yubileyinə həsr etmişəm.

***Yubiley yaşınız mübarək olsun!***

*Ey tələbələrin həyat müəllimi,*
*Eşqiniz dalğadır, qəlbiniz dəniz.*
*Çiçəklər çəməni bəzəyən kimi,*
*Siz də bu həyatı bəzəyirsiniz.*

*Ürək qəhərlənib boğulmasaydı,*
*Sevinc də, kədər də boş görünərdi.*
*Sizin tək insanlar doğulmasaydı,*
*Cahillər, nadanlar xoş görünərdi.*

*Gövhərdir, incidir hər bir sözünüz,*
*Qəlbiniz sevinclə, fərəhlə dolsun.*
*İstərəm həmişə gülsün üzünüz,*
*Yubiley yaşınız mübarək olsun!*

Gözəl müəllimim və əziz dostum Məmməd Rəcəbovu 60 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona sağlam uzun ömür, yeni-yeni yaradıcılıq uğurları və həyat eşqi arzulayıram. Özü də möhkəm arzulayıram.

***Bəxtiyar Paşayev,***
*Optika və molekulyar fizika kafedrasının dosenti*

# ZƏFƏRİN MÜBARƏK, AZƏRBAYCAN!

***Azərbaycan... Hər qonşusunda bir torpağı əsir qalan doğma Vətənimiz- Azərbaycan! Hər kəsə məlumdur ki, yurdumuz yarandığı gündən yadellilərin işğallarına məruz qalmışdır. Son zərbə illərlə bir masada çörək kəsdiyimiz, dost adı altında illərlə gizlənib vuracağı günü pusquda gözləyən namərd zərbəsi idi.***

Deyirlər ki, insana düşmən rast gələndə də gərək mərd olanı rast gələ. Bizim taleyimizə isə düşmənin ən vicdansız olanı düşmüşdü. Düşmən əsrlər boyu qəlbimizə vurduqları yaraların cavabsız qalacağını düşünürdü. Məhz buna görə meydanda at oynatmağa davam edirdilər. Ancaq necə bir xalqın damarına basdıqlarından bixəbər idilər.. 27 sentyabr edilən təxribat son idi. Ölkəmiz, ordumuz üzərimizdə olan 30 illik namus, şərəf damğasını üzərindən götürmək istəyirdi. Bir tərəfdən də ürəklərdə qəribə və dərin hüzn var idi. Uşaqdan böyüyə hər kəsə məlumdur ki, müharibə itkisiz olmur, bütöv Azərbaycan istəyiriksə, dağ kimi oğulları itirməyi gözə almalıyıq.. Bu həyatda insana candan əziz heç nə yoxdu deyirlər. Amma görün bu oğullar necə vətənə bağlı idilərsə, Vətənin bütövlüyünü öz şirin canlarından belə çox istədilər..

2 ölkə arasında müharibə gedirdi. Hansı ki “44 günlük müharibə”, “Dəmir Yumruq” əməliyyatı kimi tarixə düşən, yeri, göyü, bütün dünyanı lərzəyə salıb, hər kəsi təəccübləndirən, şanlı qələbəmizə səbəb olan həmin müharibə.. O günlərdə milyonlarla ürək cəbhə ilə döyünürdü. Düşünün, o günə qədər bəlkə də televiziyaya baxmayan şəxslər müharibə günlərində Ali Baş Komandanın çıxışını dörd gözlə gözləyirdilər. Çətin günlərdə dinindən, dilindən, irqindən, cinsindən, yaşından, asılı olmayaraq hər kəs bir cəbhədə əməliyyatın adı kimi dəmir yumruq olaraq birləşmişdilər. “Qarabağ Azərbaycandır!”, “Biz birlikdə güclüyük!” kimi şüarlar hamının dilində əzbərə çevrilmişdi. Qismən səfərbərlik elan edilən gündən gənclər könüllü şəkildə cəbhəyə yollanmaq üçün müraciət edirdilər. Ailələr də övladlarını ürəklə cəbhəyə göndərirdilər. Hətta elə ailələr oldu ki, müharibədə 2 övladı vətən yolunda şəhid oldu...

Övladını bəylikdə görməyi arzulayan analar onların üçrəngli bayrağa bürünən cansız bədənlərini torpağa tapşırdılar.. İnsanlardakı mərdliyə, qeyrətə, dözümə baxın. Cavan yaşda həyatdan nakam köçən canından bir parça olan övladlarını itirmişdilər, amma dillərində bu söz vardı: “Vətən sağ olsun!” .. Mənfur düşmən yaranan atəşkəslərin hər birindən sui-istifadə edirdi. Qəddarlıqdan gözləri o qədər kor olmuşdu ki, cəbhə zonasından kilometrlərlə uzaq olan əraziləri iriçaplı silahlardan, dinc əhaliyə qarşı istifadəsi qadağan olunmuş raketlərdən dəfələrlə atəşə tutdular. O vaxt nə qədər mülki şəxs həyatını itirdi, xəsarət aldı, anasının laylası ilə yuxuya gedən balaca, əl boyda mələklərin cansız, buza dönən bədənləri dağıntılar arasından çıxarıldı.. O gün bir bina yox, onlarla ailə, onlarla arzu, onlarla xəyal dağıldı, onlarla həyat yarımçıq qaldı.. 1990cu illəri yenidən yaşayırdıq sanki.. Dünya isə Xocalıya lal olduğu kimi Gəncəyə də kor olmuşdu.

İllərlə Ramil Səfərovu yatdığı yerdə erməni öldürdüyü üçün qınayan dünya hələ beşikdə olub danışmağı belə bilməyən məsum körpənin ölümünə göz yumurdu. Gəncəyə atılan raket zamanı dünyasının dəyişən Nigar var idi. Əgər o raket düşməsə idi, 1 gün sonra 15 yaşını keçirəcəkdi. Kim bilir ad günü ilə bağlı nə planları var idi, ailəsindən, yaxınlarından nə hədiyyə istəmişdi və ya gələcəklə bağlı necə gözəl xəyalları var idi.. Yəqin ki, bütün ad günlərində hər kəs ona “100 yaşa!” kimi qəlibləşmiş ad günü təbriki etmişdilər. Amma təəssüf ki, o sadəcə 15 il yaşaya bildi. Bu səbəbdən həmin gündən sonra düşünürəm ki, qismətdən, alın yazısından qaçmaq qeyri-mümkündür. Milyonlarla kəlimə desək, dastanlar yazsaq, yenə də bu acını ifadə etməyə gücümüz yetməz. Şükürlər olsun ki, qələbə qazandıq. Bu qələbəni Ali Baş Komandanımız başda olmaqla şəhidlərimizə, qazilərimizə, əsgərlərimizə borcluyuq. Ən əsası isə ölkə olaraq birlik olmağımız qələbəmizin ən böyük açarı idi. Müharibədən sonra ürəyimiz qan ağladı, gözlərimizdəki yaş heç bir zaman qurumadı. Həmin günlər qəlbimizdə elə dərin izlər qoydu ki, illər keçsə belə bu yaralar sağalmayacaq. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm. Artıq dostu və düşməni bir-birindən ayırırıq. Bundan sonra tariximizi unutmamalı və yenidən təkrarlanmasına icazə verməməliyik.

Qanla yazılmış qələbəmizi qorumalıyıq!

Şəhidlər Ölməz, Vətən Bölünməz!

***Dinarə Ağayeva,***
Jurnalistika fakültəsinin I kurs tələbəsi

# BDU-nun bakalavrları imtahan prosesi haqqında danışıb



## Bakı Dövlət Universitetində 2021-2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının 3-cü həftəsi uğurla davam edir

***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin IV kurs tələbəsi Raul Əskərov:*** "Fikrimcə, bu il məşğələlərin və imtahanlarin ənənəvi şəkildə təşkil edilməsi olduqca sevindiricidir. Tədrisin hibrid formada həyata keçiriməsi, uzun müddət sonra universitetdə ənənəvi tədrisi davam etdirməyimiz imtahanlara daha effektiv və məsuliyyətli şəkildə hazırlaşmağımıza səbəb oldu. İmtahanlar şəffaf və mövcud qaydalara uyğun şəkildə təşkil olunur. Bundan sonra da tədrisin ənənəvi şəkildə davam etməsinə ümid edirəm və bütün tələbə yoldaşlarıma müvəffəqiyyətlər arzulayıram".

***Ekologiya bə torpaqşünaslıq fakültəsinin III kurs tələbəsi Əsmər İmanova:*** "Dünyanı cənginə alan COVID-19 pandemiyası təhsil sahəsində bır sıra çətinliklər yaratdı. 3 semestr tədris məsafədən təşkil edildikdən sonra bu semestr tədrisin hibrid formada həyata keçirilməsi, biz tələbələrdə böyük sevinc hissi oyatdı. Tələbəlik illərinin unudulmaz xatirələrində imtahanlar xüsusu yer tutur. Bütün çətinliklərə baxmayaraq demək istəyirəm ki, ənənəvi üsulla tədris və imtahan sessiyasının təşkili daha keyfiyyətlidir. Payız semestrinin imtahan sessiyası müvəffəqiyyətlə davam edir. İmtahan tarixləri arasında kifayət qədər müddətin olması tələbələrin yaxşı hazırlaşmasına imkan yaradır. Ən əsası odur ki, imtahanlar şəffaf keçirilir, qiymətlərimiz operativ şəkildə elan edilir. Bütün tələbələrə uğurlar arzu edirəm!"

***Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi Rza Bağırov:*** "Bildiyimiz kimi, pandemiyaya görə 3 semestr təhsil distant formada həyata keçirildi. Artıq ənənəvi təhsilimizə geri döndük. İmtahan prosesi karantin qaydalarına uyğun şəkildə təşkil olunur. İmtahanlarımıza ciddi hazırlaşaraq uğur əldə edirik. Balların operativ şəkildə elan olunmasına görə professor-müəllim heyətinə təşəkkürümü bildirirəm. Hər kəsə uğurlar arzu edirəm!"

***Coğrafiya fakültəsinin III kurs tələbəsi Mədinə Quluzadə:*** "Ənənəvi imtahan ilə 1-ci kursun ilk semestrində tanış olduq, daha sonra tədris distant şəkildə həyata keçirildi. Əlbəttə ki, distant təhsilin həm müsbət, həm də mənfi tərəfləri var, mənfi tərəfi isə illərlə xəyalında olduğumuz Universitetdən uzaq qalmağımız idi. Bu sessiya bizim ənənəvi qaydada keçirdiyimiz 2-ci imtahan sessiyasıdır. Professor-müəllim heyəti sayəsində imtahanlara müfəssəl şəkildə hazırlaşmışıq. Şifahi imtahanlara gəldikdə isə bu tərz imtahan bizi qorxutmur, kamera arxasında olsaq belə, biz artıq şifahi imtahanlarla 1-ci kursdan tanışıq. Məhz bu səbəbdən şifahi imtahanlardan da uğurla keçəcəyimizə əminik. Bu sessiyada hər kəsə uğurlar diləyirəm."

***Biologiya fakultəsinin IV kurs tələbəsi Vüsal Məmmədrəhimov:*** "Uzun aradan sonra nəhayət ənənəvi tədris bərpa olundu. İmtahan sessiyası ənənəvi formada həyata keçirilir. Bu səbəbdən imtahanların ənənəvi formada keçirilməsi hər bir tələbədə olduğu kimi məndə də həyacan hissi yaratdı. 4-cü kurs olduğum üçün əvvəllər ənənəvi formada sessiya imtahanlarını verdiyim halda yenidən bu həyəcanı yaşayıram. Nə qədər həyacanlı olsaq da, bu xatirələr tələbəlik illərimizin unudulmaz anlarına çevrilir. Hər bir tələbəyə imtahanlarda uğurlar arzu edirəm".

# "Qarabağ bizimdir!"

***Uzun bir yolda irəliləyərkən gözlərimə tuşlanan şəkillərə baxıram. Şəkillərin hər biri öz talelərini danışmağa başlayır. O talelər ki, sonları eyni, amma başlıqları fərqli olan filmlərdir. Bu filmlər əslində bizi bir amalda birləşdirir. Bir mübarizə uğrunda tökülən qanların gücünü öyrədir! Qanların al-qırmızı rəngində boğulmağa məhkum olan , düşmənin vətənimizin tər qönçələrinə toxunmamağı öyrədir!***



Bir sözlə vətənimizə göz dikənlərə bizim kim olduğumuzu göstərir. Bu vaxt bizə yaşadığımız günün mirası deyil, keçmişdən gələn sehirli anıdır. Buna görə də uzaq keçmişin buraxdığı sərvəti qoruyub saxlayırıq. Saxlamağa da davam edəcəyik. Ona görə ki, dədələrimizin əmanət etdiyi xəzinəni mənliyimizdə, kimliyimizdə, düşmənə hədəflənən sözlərimizdə yaşadırıq. Çünki düşmən bir zamanlar qəlbimizdə elə bir yara açmışdı ki, o yaranın sağalmayacağını düşünürdü. Ancaq bilmirdilər ki, Azərbaycan igidləri bozqurd nəslindəndir. Hər nə olursa-olsun, açılan yaranı sağaldarlar. Geri dönəndə isə qarşınızda yaraları ilə qidalanmış cəngavərlərlə rastlaşarsınız. Bundan sonra o cəngavərlərə gözucu ilə baxmaqdan qorxarsınız. Ona görə ki, onların duruşu sizə içinizdəki qorxu ocağını yandırmaqdan başqa çarə buraxmaz. Çünki qurd qışı keçirər, amma yediyi ayazı unutmaz! İgidlərimiz də unutmadı! Əsir qalmış torpaqlarımızı almaq üçün əllərindən gələni etdilər. Axı necə unutmaq olardı? - Anaların gözyaşlarını, uşaqların gözlərindəki qorxunu, babaların əllərindəki əsalarla düşmənə qarşı dik duruşunu. Unutmamaq üçün vücudumuzun hər nöqtəsinə qazıdıq. Uşaqlara göstərilən vəhşilikləri dünyaya çatdırmaq üçün videolar göstərdik. Bəziləri bu videoya baxa bilmədi. Onların baxa bilmədiklərini əslində saniyəsi və dəqiqəsi ilə bizim övladlarımıza yaşadıldı. O vaxt başa düşdük ki, biz çox güclü bir ölkəyik. 28 il bundan əvvəl öz doğma yurdlarından, ata-baba ocaqlarından qovulan vətəndaşlarımız dünya tarixində elə bir çevriliş etdilər ki, acımızı görmək istəməyən bəzi ölkələr bozqurdların qayıdışını izləməkdən başqa çarələri qalmadı. Hətta igidlər əfsanə dedilər. Bəli, əfsanə olan bizlərdik! Həşimovlar, Mirzəyevlər və bir çox döyüşçülərimiz... Hər qarışı düşməndə əsir qalmış torpaqlarımızı almaq üçün əlimizdən gələni etdik! Çoxlarının edə bilmədiklərini etdik! Birlik olub torpaqlarımızı almaq üçün bir ata 2 övladını vətənə qurban verdi. Sizə kimlərdən deyim, yardımsevər vətəndaşlarımızdan.... Ən əsas da analarımızdan danışım. Vətən oğulları ac qalmasın deyə evlərini tərk edib, onlar da döyüşçülərimiz kimi vuruşurdu. Necə ki, döyüşçülərimiz ön cəbhədə vuruşurdu, onlar da arxa cəbhədə mübarizə aparırdı. Arxa cəbhədə vuruşanlardan biri də Turqut Xəlilbəylidir. Əsgərlərimizin yaralarının sağaltmaq üçün cəbhəyə yollanmış həkimdir. O ki ölümdən qorxmayaraq şəhidlik zirvəsinə ucaldı. Şəhidlik zirvəsinə yüksələn digər igidimiz Dövlətzadə Cəbrayıldır. Elə adı kimi düşmənin bir generalını və polkovnikini təkbaşına öldürərək Polad Həşimovun qisasını almışdır. Azyaşlı olmasına baxmayaraq göstərdiyi şücaəti dastana çevrildi. Türk qardaşlığını yaşadan Fulya Öztürkün mübarizəsinə nəzər yetirək. Gəncədə yaşadılan faciəni, Azərbaycan jurnalistləri ilə birlikdə dünyaya çatdırdı. Onda bir daha sübut etdik ki, qardaşlığımız bir ağacın iki qolu kimi möhkəmdir. Bu möhkəmlik bayraqlarımız ilə şəhərimizi bəzəyir. Ali baş komandanımız İlham Əliyevin sözlərinin ahəngdarlığı ilə bəzəyir. O ki düşmənə layiqli cavab verərək vətəndaşlarımızın dilində heç vaxt unudulmayan musiqiyə çevrildi. Çünki xalqına verdiyi sözü yerinə yetirdi. Düşməni vurduğu ilk zərbədə yerə yıxdı. "Qarabağ bizimdir" deməsi ilə bütün xalqımızı bir gözü yaşlı, bir gözü sevincli Zəfər Gününü izlədi. Düşməndən aldığımız qənimətləri hər kəsə göstərdik. Onu da göstərdik ki, türk əsgər olmur, əsgər doğulur. İndi isə daha yaxşı başa düşürəm ki, niyə Qarabağ bizimdir. Çünki bağrımız yarıla-yarıla səni aldıq! Dodaqlarımızda səslənən nəğmə ilə səni aldıq! "Vətən yaxşıdır" ifası ilə uşaq gülüşlü Xudayar Yusifzadə kimi canından keçən igidlərlə sənə qovuşduq. İgidlərimiz isə ailəsini vətənə əmanət edərək şəhidlik zirvəsinə qalxdılar. Mövlanənin dediyi kimi: "Quş ölər, sən uçuşu xatırla!". Amma o quşlar ölmədi. Polad Həşimov və Mübariz İbrahimovun komandanlığı altında bir çox döyüşçülərimiz göydə süzülərək Çingiz Mustafayevin kamerasına çəkildilər. Ancaq Mustafayev bu səfər igidlərimizin "Yallı" gedən xoşbəxtliyini kameraya alırdı. Sanki qələbəni Dövlətzadə Cəbrayılın adında yaşadırdılar. Yəni Cəbrayıl torpaqlarında...

***Nəzrin Gəncəliyeva,***
*Jurnalistika fakültəsinin*
*II kurs tələbəsi*

# Cəbhədən əsgər gəlir



Cəbhədən əsgər gəlir!..
Ərən gəlir, nər gəlir!..
Açılıb nur qolları,
Üzü gülür yolların,
Oğul gəlir, ər gəlir!..
Cəbhədən əsgər gəlir!..

Cəbhədən əsgər gəlir!..
Sevinc içində hamı,
Boylanır məhəbbətlə...
Verib əsgər salamı,
Dayanıb əzəmətlə...

Qayıdır ön cəbhədən
Müjdəylə, şücaətlə...
Ona güvənir Vətən,
Döyüşüb mətanətlə...

Görüb qanlı savaşı,
Öpüb torpağı, daşı,
Eldə ucadır başı,
Gəlir, xoş xəbər gəlir,
Cəbhədən əsgər gəlir!..

Cəbhədən əsgər gəlir!..
Göylərdə dalğalanan
Bayraqlar rəngbərəngdir...
Azərbaycan!..
Türkiyə!..
Sədası həmahəngdir...

Əsgər paltarı geyən
Hər uşaq bir çələngdir!..
Bu gün güllər, çiçəklər
Qəşəngdən də qəşəngdir!..

Qurub inam dağını,
Qırıb işğal bağını,
Yarıb yağı bağrını,
Qələbə, zəfər gəlir,
Cəbhədən əsgər gəlir!..

Cəbhədən əsgər gəlir!..
Xoş müjdələr alınca
Ürəklər dönür şama,
Zəfər zəfər dalınca
Məlhəm olur yarama...

Soraq var Cəbrayıldan,
Qubadlı yetir kama,
Suqovuşan azaddır,
Ağ gün doğur Ağdama...

Füzuli qəlb yarımız,
Zəngilan zər varımız,
Şuşa Şah damarımız,
Laçın, Kəlbəcər gəlir,
Cəbhədən əsgər gəlir!..

Sərkərdəmiz əyninə
Geydi əsgər libası,
Bağlandı bir-birinə
Xalqla ordu təması.

Şükür, qalmadı yerdə
Şəhidlərin qisası!..
İgidlər ön səngərdə
Tutdu düşmənə yası...

Şəhidlər baş tacımız,
Yaralılar acımız,
Qazilər əlacımız,
Əmrə səfərbər gəlir!
Cəbhədən əsgər gəlir!..
Otuz illik qəm bitib,
Təbiət gəlib cana,
Həsrət çəkən dağların
Nisgili çatıb sona,

Gözündə sevinc yaşı
Şadlanır ata, ana...
Doğmalar iftixarla
Dayanırlar yan-yana...

Uca tutub bayrağı,
Yetib şöhrətə, şana,
Qanla alıb torpağı,
Tarix yazıb zamana!..

Qaytarıb Qarabağı
Anam Azərbaycana,
Verib Zəfər sorağı
Ali Baş Komandana,
Qalib, müzəffər gəlir!..
Cəbhədən əsgər gəlir!..
Cəbhədən əsgər gəlir!..

***Knyaz Aslan,***
*Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri*



# Jurnalistika fakültəsinin magistrantları Azərbaycan Mətbuat Şurasında olublar




***Martın 29-da Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Təranə Mahmudovanın rəhbərliyi ilə Jurnalistika fakültəsinin magistrantlarının bir qrupu Azərbaycan Mətbuat Şurasında olublar.***

Əvvəlcə magistrantlar Azərbaycan Mətbuat Şurasının strukturu və fəaliyyəti haqqında məlumatlandırılıb. Mətbuat Şurasının sədri Əflatun Amaşov Şuranın fəaliyyəti və gələcək hədəfləri haqqında məlumat verib.

Daha sonra Azərbaycan Jurnalistlərinin Həmkarlar İttifaqının sədri, Beynəlxalq Jurnalistlər Federasiyasının Azərbaycan üzrə təmsilçisi, Beynəlxalq Söz Azadlığı Mübadiləsi Şəbəkəsinin üzvü Müşfiq Ələsgərli beynəlxalq jurnalist təşkilatları haqqında hazırladığı təqdimatı iştirakçıların diqqətinə çatdırıb. O, beynəlxalq jurnalist təşkilatlarının fəaliyyəti və funksiyaları barədə ətraflı məlumat verərək onları bir-birindən fərqləndirən cəhətləri, həmçinin bu qurumların Azərbaycan jurnalist təşkilatları ilə əlaqələri haqqında geniş danışıb, bəzi məsələlər üzrə öz təcrübəsini paylaşıb.

Sonda M.Ələsgərli görüş iştirakçılarını maraqlandıran suallara cavab verib. Magistrantlara Mətbuat Şurası və Beynəlxalq Jurnalistlər Federasiyasının Azərbaycan üzrə nümayəndəliyinin fəaliyyətini əks etdirən broşür və kitablar təqdim olunub.

# Arzulardan, ümidlərdən çələng hörək...

***Bu şerimi dahi Azərbaycan şairi Mikayıl Müşfiq'in "Həyat sevgisi" şeirindən təsirlənərək yazmışam.***

Biz kimik ki, gələcəyi görək?
Əl açıram, Tanrı, sənə...
Duyursanmı, de bir, söylə.
Axıb gedir göylə zaman
Dayanmayır heç bir an da.
Sanki həyat doyulmazdır
Ölüb can verdiyin anda...
Həyatdan doymayır gözüm,
Zaman da yetməyir mənə...
Ancaq yenə solur gülüm...
Qalır mənim əllərimdə...
Ümidlərim, arzularım,
Dualarım, xəyallarım...
Səndən istəyirlər, Tanrım,
Yüz illərin möcüzəsin...
"Bir gün"lərin gəlməsin...
Onlar ki şövqüdür mənə...
Verməyirlər yuxu mənə.
Ümid deyir: "Məni itirmə..."
Arzu deyir: "Varam hələ..."
Tanrı deyir: "Dua elə...
Xəyallarından əl çəkmə.
Tut ki, mənim ətəyimdən,
Keçməyim
Mən əməyindən.
Bax, çıraq edirəm sənə
Könüldən gələn imanı...
O, ipdir vermişəm sənə
Çün yoxdur mərhəmət anı...
O, daim çıxarar səni
Ən dərin quyulardan,
Çıxılmaz sınaqlardan,
Ürəyini əsdirən
Vəsvəsə qorxulardan...!"
Nə gözəl allahsan Sən, ey Tanrı...
Qaranlığıma işıqdır nəsihətlərin.
Nursan, ümidsən, çıraqsan özün...
Qoy olsun Sənə qul #bozqurdyazarı...

***Lalə Əza Hüseyn,***
*Jurnalistikasının fakültəsinin IV kurs tələbəsi*

# Daxili inam və güc...

***Bəzən insan həyatda hər şeydən hər kəsdən qaçıb uzaqlaşmaq istəyir. O zaman belə bir sual yaranır. Həqiqətən bacaracaqmı və ya buna həqiqətən ehtiyyac varmı?*** Lakin sonra düşünürsən ki, qaçmaq heç də uzaqlaşmaq və ya problemin həlli deyil. O anda düşünməli və problemə qarşı mübarizə yolunu araşdırmalısan. Bununla bərabər həyatına daxil olan hadisəni problemə çevirməməli və həllini tapmaqçün çarpışmaq deyil də sadəcə axarında davam etdirmək lazım. Bu axarın içərisində isə özünə tanış olmayan bir hiss - daxili güc və inam yaranır.

Bəli, inam. Əgər inam və özünə güvənmək hiss olmazsa insanın həyatda robotdan bir fərqi olmaz. İnanaraq həyata tutunmaq və gələcəyə doğru addımlamaqda güc toplamaq. Hər bir insan bu gücə inanaraq yola çıxa bilər. Bu yol nə qədər keşməkeşli olsa belə səni irəli aparan bir ilahi varlığa inam varsa heç bir əngəl sənə rast gələ bilməz. Bəli, bu ilahi varlıq həm sənin daxilində olmalı və həm də sənə yol göstərərək onunla olan dialoqunu həyata keçirməlisən.

### *İnam hissi əhəmiyyətli fərdi xüsusiyyətdir*

Bu hisslə biz həyatda problemlərlə baş etməyi bacararıq. Hər bir şəxs həyatla baş etməyi bacarıb, xoşbəxtliyə nail olmaq istəyirsə mütləq mənada özünü buna adaptasiya etməlidir. Sözsüz bu yolda mükəmməl olmayanlar çoxdur, lakin bu çətinlik içərisində asan bir variant tapmaq öz öhdəmizə düşür. Hər gün müşahidə etdiyin həyata tamam fərqli inamla baxmaq. Qısacası insanın özünü yenidən kəşf etməsi və olanları birər-birər analiz etməsi lazım. Hər bir edə biləcəyimiz və etmək istədiklərimiz haqqında proqnozu özümüz verməliyik. Kənarda olan insanların bizə deyil, bizim onlara təsirimiz olmalıdır. Əks halda nə bir düşüncəmiz, nə də bu düşüncəni həyata keçirə bilmə gücü. Bəli, "bunlar mənim düşüncəmdir"- deyə yola davam etməliyik.

Bəzi insanlar daxili inamı mübahisəli bir mövzu kimi qəbul edir. Halbuki insan öz eqosuna qalib gəlməyi bacarırsa özünü kimsədən üstün deyil də, daha sadə aparmağı bacarmalıdır. Bu zaman cəmiyyətin içərisində daha çox olmalı, insanları daha da yaxından tanımaqla yanaşı, həm də onlardan biri olmağı, nikbin olaraq irəliləməyi seçməlidir.

### *Kitablar...*

Bəzən insanlar daxili inam hissini kitablardan tapırlar. Bir qism insanlar bu hissləri yalnız kitab oxumaqla qazanır, eyni zamanda ehtiyacları olan bir çox əlçatmazlığı da burada tapır. İnsanlar daha tez münasibət qurmağı, hafizəni gücləndirməyi və həyatı daha da mənalandırmağı kitablardan faydalana bilir. Bir çox insanlarda daxili inam zəif olduğundan onlar ətrafında olanların izni olmadan, onların məsləhəti olmadan hərəkət edə bilməzlər. Lakin kitablar bu fikri alt-üst edir. Kitablar insanın özünü nəzarət edə biləcək gücə sahib olduğunu göstərir. Həyatdakı münasibətlərin pozitiv yolla irəliləməsini daha da gücləndirmək əsasən oxuduqlarımız və müşahidələrimiz nəticəsində meydana çıxır...

### *Düşünmə və bacarıq*

Bu iki hissin yeganə birliyi sevgidir. Gerçək inam hissi ilk olan özümüzdən başlayır. Bu hiss insanın bütün əngəlləri aşmasına yardımçı olur.

Əgər bir hadisəni problem olaraq ağlımıza yerləşdirsək təbii ki, ona çatmaq mümkünsüz görünəcək. Lakin qəlbən yanaşılan bir hadisə bizim qazanmamız üçün vəsilədir. Onunçün də bu hissdə qəlbən düşünərək ağılla hərəkət etmək tövsiyə olunur. Bütün bunları insanda yarada biləcək yeganə hiss sevgidir. İnsan həyatı, insanları, təbiəti sevərsə onun üçün bu hiss zatən çoxdan yetişmişdir.

***Sara Parlanova***
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin IV kurs tələbəsi*

# Tələbələrin ənənəvi imtahan sessiyası haqqında təəssüratları

***Yanvarın 5-də Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyası başlayıb. İmtahanlar Azərbaycan Respublikası təhsil nazirinin 2021-ci il 10 dekabr tarixli F-570 nömrəli əmrinə müvafiq olaraq əyani formada təşkil edilir. İmtahanların ilk günündən etibarən sessiya dövründə tələbələrin biliyinin obyektiv qiymətləndirilməsinin və şəffaflığın təmin edilməsi üçün bütün şərait yaradılıb. Xüsusi karantin rejiminin tələblərinə riayət olunması, imtahanlararası növbəliliyin gözlənilməsi, sıxlığın aradan qaldırılması məqsədilə Universitet tərəfindən müvafiq tədbirlər görülüb, ənənəvi imtahan sessiyasının təşkili üçün müvafiq qərarlar icra edilib.***



*BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tələbələrin imtahan prosesi, onun təşkili, keçirilməsi, qiymətləndirmə və nəticələr barədə təəssüratlarını öyrənib:*

***Tarix fakültəsinin IV kurs tələbəsi Qara Kərimov:*** “3 semestrdən sonra ənənəvi qaydada imtahan veririk. Uzun müddətdən sonra yazılı və ilk dəfə şifahi formada imtahan vermək, əlbəttə, müəyyən həyəcan yaradır, amma bu həyəcan üçün darıxdığımı deyə bilərəm. Artıq 4-cü kurs tələbəsiyəm və bakalavr səviyyəsində son imtahanlarımı verirəm. Son imtahanlarımı yenidən ənənəvi qaydada vermək, unudulmuş həyəcanları yenidən yaşamaq məndə çox xoş duyğular yaradır. Artıq ilk imtahanımı şifahi qaydada vermişəm. İlk dəfədir şifahi formada ənənəvi qaydada imtahan verməyimizə baxmayaraq çəkdiyimiz əziyyət və Universitet rəhbərliyinin yaratdığı şərait nəticəsində imtahan çox şəffaf və ədalətli şəkildə həyata keçirildi. Bildirmək istəyirəm ki, imtahanlarımız obyektiv yoxlanılır və imtahan nəticələrimiz operativ şəkildə məlum olur. İmtahan sessiyasında iştirak edən hər kəsə uğurlar arzu edirəm”.

***Kitabxanaçılıq-informasiya fakültəsinin IV kurs tələbəsi Ülviyyə Əsgərli:*** “Koronavirus pandemiyası dünyada milyonlarla insanın həyat tərzini dəyişdi. Pandemiya istər turizm, mədəniyyət, iqtisadiyyat, istərsə də tədris sahəsinə təsirsiz qalmadı. Virusun yayılmasını azaltmaq üçün dünyanın əksər hökümətləri təhsil müəssisələrini müvəqqəti bağlamağa qərar verdi. Bununla əlaqədar olaraq məsafədən təhsil proqramları və platformalarının istifadəsini tövsiyə etdi. Məlum səbəbdən təhsil aldığım BDU da onlayn təhsili təşkil etdi. Bu prosesdə müəllimlərin əməyi və zəhməti böyük oldu. Onlar proqrama uyğun olaraq dərsləri ardıcıl və izahlı şəkildə bizə çatdırmağa çalışdı. Hər hansı mövzuda sual yarandıqda çəkinmədən izah edirdilər.

3 semestr sonra ənənəvi təhsilə qayıtmaq tələbələr üçün sevindirici oldu. Tədricən bu prosesə adaptasiya olunduq, müəllimlərimizin dəstəyi və anlayışı nəticəsində tədris prosesi uğurla başa çatdı. Yanvar ayından etibarən imtahanlarımız başlayıb və biz ənənəvi formada imtahan veririk. İmtahanlar Universitetin qəbul etdiyi qaydalara uyğun olaraq aparılır. Uzun fasilədən sonra yenidən ənənəvi imtahana tələbələr daha məsuliyyətlə və həvəslə hazırlaşır. Biliyimiz obyektiv qiymətləndirlir, müəllimlərimiz bizə humanist yanaşır. Ümid edirəm ki, pandemiya tezliklə bitəcək və ənənəvi tədris tam bərpa olunacaq. Onlayn tədris zamanı qazandığımız vərdişlərdən isə digər platformalarda, əlbəttə, yararlanacağıq”.

**Kimya fakültəsinin III kurs tələbəsi Sevinc Həsənova:** “3 semestrdən sonra ənənəvi formada təhsilə qayıtmaq hər kəs kimi məni də sevindirir. Labaratoriya və seminar dərslərimizin ənənəvi olaraq müəllimlərlə üzbəüz keçirilməsi bizim də dərsləri praktiki olaraq yaxşı mənimsəməyimizə kömək edir. Nəzəri biliklərimizi labarotoriya şəraitində təkmilləşdirdik. Təbii ki, bu müddətdə COVID-19 pandemiyasının yenidən yayılmasının qarşısını almaq üçün də əlimizdən gələni edirdik.

İmtahan sessiyasının ənənəvi formaya keçməsi ilə bağlı hər tələbədə olduğu kimi, mənim də həyəcanım oldu. Amma biz I kursun ilk semestrində ənənəvi imtahanda iştirak etdiyimizə görə necə keçiriləcəyini bilirdik. Hazırda imtahan sessiyamız davam edir və imtahan tarixlərimiz arasında yetərli vaxt olduğu üçün hər birinə hazırlaşmaq imkanımız var”.

***Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi Didar Salmanlı:*** “BDU-da payız semestrinin imtahan sessiyası artıq bir neçə gündür ki, başlayıb. Universitetin bir çox fakültələrində ikinci imtahan yekunlaşıb. Mən Şərqşünaslıq fakültəsində ərəb dili və filologiyası ixtisası üzrə təhsil alıram. İmtahan sessiyası obyektiv keçirilir. BDU-nun qəbul etdiyi müvafiq qərarlar əsasında imtahanlar tam şəffaf formada keçirilir və qiymətləndirmə tam ədalətli şəkildə aparılır. İmtahanların təşkili və keçirilməsindən çox razı qaldım. Nəzarət ciddi idi. Tələbəyə biliyini ifadə etmək üçün bütün şərait yaradılmışdı. Ballar operativ şəkildə elan olunur. Hər kəsə uğurlar arzu edirəm”.

# Xalq artisti Nurəddin Mehdixanlı ilə tələbələrin görüşü keçirilib

***Yanvarın 24-də "ASAN Könüllüləri" Təşkilatının "Mədəniyyət carçısı" proqramının və Bakı Dövlət Universitetinin (BDU) təşkilatçılığı ilə "Milli mənəvi dəyərlər" layihəsi çərçivəsində Azərbaycan Respublikasının görkəmli teatr və kino aktyoru, Azərbaycan Respublikasının xalq artisti Nurəddin Mehdixanlı ilə tələbələrin görüşü keçirilib.***



Görüşdə "səhnə ustalığı" mövzusunda müzakirələr aparılıb, Azərbaycanda teatr sahəsinin inkişafı istiqamətində görülən işlərdən danışılıb. N.Mehdixanlı ölkəmizdə mədəniyyətə, incəsənət xadimlərinə göstərilən dövlət qayğısından bəhs edib, Azərbaycanda teatr tarixindən, teatr sənətindən söhbət açıb.

Sonda N. Mehdixanlı "ASAN könüllüləri"nin və BDU tələbələrinin çoxsaylı suallarını cavablandırıb.

# BDU-nun tələbəsi sambo üzrə Respublika çempionu olub

***Kitabxanaçılıq-informasiya fakültəsinin 1-ci kurs tələbəsi Murad Əliyev yeniyetmələr arasında sambo üzrə Respublika birinciliyinin qalibi olub.*** 58 kq çəki dərəcəsində yarışan Murad Əliyev keçirdiyi 6 görüşü qələbə ilə başa vurub. Bu yarış Azərbaycan yığma komandasını seçmək üçün Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunur və yarışın qalibləri dünya və Avropa çempionatlarında ölkəmizi təmsil etmək hüququ qazanırlar.



Qeyd edək ki, tələbə Murad Əliyev dəfələrlə ölkəmizdə, Türkiyə və Gürcüstanda keçirilən idman yarışlarının qalibi olub.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.01.2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08